*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

4 fevral 2022-ci il
№05 (8963)

www.muallim.edu.az
muallim@edu.gov.az



# İldə 400-ə qədər gənc dünyanın aparıcı ali məktəblərinə göndəriləcəkdir

**Prezident İlham Əliyevin Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumundakı müzakirələrdəki çıxışından**



Artıq yeni yaradıla biləcək peşələr yaranmaqdadır. Burada mərkəzin olması bizə, yenə də deyirəm, imkan verəcək ki, biz öz iqtisadi siyasətimizi planlaşdıraq, dövlət tərəfindən yeni işlərin yaradılmasına stimul verək, təkan verək, insanların peşə profilini dəyişdirək. Bu da çox böyük zəhmət və bilik tələb edən sahədir. Yəni, biz Dördüncü Sənaye İnqilabına uyğunlaşmalıyıq, uyğunlaşmasaq, geridə qalacağıq. Biz bunu özümüzə rəva görə bilmərik. Çünki biz müharibə şəraitindəyik, biz daim inkişafda olmalıyıq və daim güclü olmalıyıq. Güc isə tərəqqi ilə bağlıdır. Ona görə burada, yenə də deyirəm, dövlət qurumları tərəfindən çox ciddi iş aparılmalıdır. İlk növbədə, Təhsil Nazirliyi, nazir buradadır, onlar bunun üzərində işləyirlər.

Xaricdə təhsil alan gənclərlə bağlı proqramı biz 2007-ci ildə başlamışıq. 2006-cı ildə qərar verildi, sərəncam imzalandı və artıq 2007-2015-ci illəri əhatə edən genişmiqyaslı proqram icra edilməyə başlandı. Onu da deməliyəm ki, burada da bir yenilik yox idi, çünki sovet vaxtında Heydər Əliyevin göstərişi ilə Azərbaycan gəncləri, yüzlərlə azərbaycanlı gənc Sovet İttifaqının aparıcı ali məktəblərinə ezam edilirdi, özü də güzəştli şərtlərlə. Onlar o ali məktəblərə daxil olurdu.

Mənim arqumentlərim o idi ki, birincisi, biz bunu nə üçün edirik? Ona görə edirdik ki, azərbaycanlı gəncləri yetişdirək, onlar gözəl peşə sahibləri olsunlar, mütəxəssis olsunlar. Əsas məqsəd budur - xalqımızın intellektual potensialının möhkəmləndirilməsi. Deməliyəm ki, biz gəncləri 30-dan çox ölkəyə, müxtəlif ölkələrin 300-dən çox ali məktəbinə ezam edirdik. Bu məqsədlər üçün 200 milyon manat vəsait xərcləndi.

2006-cı ildə biz bu proqrama başlayanda, Azərbaycanda vəziyyət elə idi ki, bir çoxları bəlkə də orada, xaricdə qalmağı seçə bilərdilər. Ancaq buna baxmayaraq, dövlət xətti ilə oxuyanların böyük hissəsi Azərbaycana qayıdıb. 3500 təqaüd verilmişdi və onlar qayıdıb. Ondan sonra biz bu proqramı dayandırdıq, çünki təhlil aparmaq lazım idi: Qayıdanların neçə faizi işlə təmin edilib, neçə faizi dövlət, neçə faizi özəl strukturlarda işlə təmin edilib, onların karyerası necə inkişaf edir. Bütün bu məlumat Təhsil Nazirliyində var, bütün bu təhlil aparılıb. Yəni, çox uğurlu proqram idi. Ona görə yeni proqram artıq işlənilib və müvafiq sərəncam keçən il verilib. Yəqin ki, bu ildən başlayaraq, biz bu proqramı bərpa edəcəyik, yeni formada bərpa edəcəyik. Yəni, əvvəl birinci proqramın, tutaq ki, çatışmazlıqları nəzərə almaq şərtilə. Haradasa, ildə 400-ə qədər gənc dünyanın aparıcı ali məktəblərinə göndəriləcəkdir.

## 2022-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elm və təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2022-ci il Gənclər üçün Prezident mükafatları verilsin:

Axundova Lalə Əhməd qızı
Bayramova Emiliya Polad qızı
Əliyev Azər Ruslan oğlu
Gülaliyeva Səyyarə Müşfiq qızı
Hidayətov Coşqun Hikmət oğlu
Hüseynov Orxan İsa oğlu
Xəlilli Əliqənbər Yadigar oğlu
Qasımov Əziz Kamal oğlu
Quliyev Azər Alik oğlu
Muradov Suad Rəşad oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 fevral 2022-ci il*

---

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi**

“ 31” yanvar 2022-ci il № Q-02

## QƏRAR

“25” yanvar 2022-ci il № 35/7

## Ali təhsil müəssisələrinin tələbələri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalının keçirilməsi barədə

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti bu gün uğurla davam etdirilir. 2022-ci ilin may ayının 10-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü tamam olur. Ulu öndərin anadan olmasının 99-cu ildönümü və xatirəsinə ehtiram əlaməti olaraq ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrini milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörmət ruhunda hazırlamaq məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin Rəyasət Heyəti **qərara alır:**

**1.** Ali təhsil müəssisələrinin tələbələri arasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalı 3 mərhələ üzrə 2022-ci ilin mart-may aylarında keçirilsin.

**2.** Ali təhsil müəssisələrinin tələbələrinin bədii yaradıcılıq müsabiqə-festivalı Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə tədbiri sayılsın.

**3.** Müsabiqə-festival qaliblərinin yekun konserti 2022-ci ilin may ayının birinci yarısında Bakı şəhərində keçirilsin.

**4.** Bədii yaradıcılıq müsabiqə-festivalının Əsasnaməsi (əlavə 1), Təşkilat Komitəsinin (əlavə 2) və Münsiflər Heyətinin tərkibi (əlavə 3) təsdiq edilsin.

**5.** Respublika Təşkilat Komitəsi, ali təhsil müəssisələrinin rəhbərləri, tələbə həmkarlar ittifaqı komitələrinin sədrləri:

- müsabiqə-festivalın yüksək səviyyədə keçirilməsi üçün tələbələrə lazımi şəraitin yaradılmasını;
- bu qərarla təsdiq edilmiş Əsasnamənin şərtlərinə uyğun müsabiqə-festivalın keçirilməsini;
- yekun konsertin kütləvi-informasiya vasitələri tərəfindən işıqlandırılmasını təmin etsin.

**6.** Bədii yaradıcılıq müsabiqə-festivalının keçirilməsi ilə bağlı tərəflər üzərinə götürür:

**6.1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi:**

- müsabiqə-festivalda qaliblərə hədiyyələrin alınmasını;
- diplom və dəvətnamələrin hazırlanmasını.

**6.2. Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi:**

- müsabiqə-festival qaliblərinin yekun konsertinin keçirilməsi üçün yerin (zalın) icarəyə götürülməsini və səhnə tərtibatını;
- Münsiflər heyətinin sədrinə 800 manat, üzvlərinə 600 manat məbləğində pul mükafatının verilməsini;
- Müsabiqənin I və II mərhələsində Münsiflər heyətinin zonalara ezam olunmasının təmin edilməsini;
- Respublika mərhələsində bölgələrdə təhsil alan iştirakçıların Bakı şəhərinə ezamiyyə xərclərinin ödənilməsini.

**7.** Tərəflər müsabiqə-festivalın keçirilməsi və qaliblərin mükafatlandırılması ilə bağlı xərclər smetasını hazırlayıb 15 gün müddətində təsdiq etsinlər.

**8.** Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsi (E.Əliyev) və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin Mədəni-kütləvi və idman işləri şöbəsi (R.Nəzirov) bu qərardan irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsinlər.

**9.** Təhsil Nazirliyinin və Respublika Komitəsinin müvafiq şöbələri qərar və əlavələrin “Azərbaycan müəllimi” və “Ülfət” qəzetlərində dərc olunmasını və internet səhifələrində yerləşdirilməsini təmin etsinlər.

**10.** Qərarın icrasına nəzarət nazir müavini F.Qurbanova və sədr müavini M.Cəfərzadəyə həvalə olunsun.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

**Səttar MÖHBALIYEV,**
**Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri**

---

# “Azərbaycan gəncliyinin milli ideoloji inkişaf modeli”

**Fevralın 1-də YAP Gənclər Birliyinin təşkilatçılığı ilə 2 fevral — Gənclər Gününə həsr olunmuş “Azərbaycan gəncliyinin milli ideoloji inkişaf modeli” mövzusunda konfrans keçirilib.**





## Gənclər Gününə həsr olunmuş konfrans keçirilib

Əvvəlcə tədbir iştirakçıları Gənclər Gününə həsr olunmuş rəsm sərgisi ilə tanış olublar.

Konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Azərbaycanda dövlət gənclər siyasətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Konfransda açılış nitqi ilə çıxış edən YAP sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Azərbaycan gəncliyi həm ölkəmizi beynəlxalq müstəvidə layiqincə təmsil etmək missiyasını uğurla yerinə yetirib, həm də respublikamızın ərazi bütövlüyünün təmin olunmasında öz üzərinə düşən vəzifənin öhdəsindən məsuliyyət və şərəflə gəlib. Tahir Budaqov qeyd edib ki, Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun inkişafına xüsusi diqqət yetirib.

Konfransda iştirak edən təhsil nazirinin müavini Firudin Qurbanov ilk olaraq ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ilin fevral ayında keçirilmiş Azərbaycan Gənclərinin I Forumu barədə xatirələrini bölüşüb. Firudin Qurbanov bu gün təhsilimizin davamlı inkişafının Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqət mərkəzində olduğunu vurğulayıb.

Ölkəmizdə təhsilin inkişaf etdirilməsi üçün ardıcıl işlər görüldüyünü diqqətə çatdıran nazir müavini bu gün Azərbaycan dövlətinin gənclərin yüksək təhsil alması üçün bütün lazımi addımları atdığını qeyd edib. Firudin Qurbanov əlavə edib ki, xüsusilə təhsilimizin maddi-texniki bazasının gücləndirilməsi, dünya təhsilinə inteqrasiyası istiqamətində sistemli tədbirlər həyata keçirilir. Gənc nəslin yüksək biliklərə sahib olması, vətənpərvər ruhda yetişdirilməsi, istedadlı gənclərin üzə çıxarılması, dünyanın nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi və s. addımlar bu qəbildəndir. Gəncliyin inkişafı istiqamətində müxtəlif dövlət proqramları da icra olunub. Bu proqramların məqsədi Azərbaycan gəncliyinin müasir biliklərə sahib olmasıdır.

Nazir müavini çıxışının sonunda gənclərə öz tövsiyələrini verib.

Konfransda çıxış edən gənclər və idman nazirinin müavini Fərhad Hacıyev qeyd edib ki, bu gün Azərbaycanın gənclər siyasəti dünyanın bir çox ölkələri üçün qabaqcıl nümunədir və artıq bu nümunə öyrənilir. Dövlətimiz gənclər üçün bütün imkanları yaradıb. Gənclərimiz bu imkanlardan yararlanmalıdırlar.

Konfransda çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev bildirib ki, Azərbaycanda geniş vüsət almış könüllülər hərəkatının aparıcı gücünün məhz gənclər olması sirr deyil. Ülvi Mehdiyev könüllülər hərəkatının cəmiyyətin inkişafında xüsusi əhəmiyyətinin olduğunu deyib.

Konfransda çıxış edən Azərbaycan Silahlı Qüvvələrinin zabiti, Vətən müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Anar Mirzəyev bildirib ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. Məhz onların rəşadəti sayəsində əldə olunan şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımız 30 illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu.

Konfransda yekun nitqi söyləyən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 2 fevral - Gənclər Günü münasibətilə tədbir iştirakçılarını təbrik edərək gənclərimizə müstəqil ölkəmizin inkişafı naminə fəaliyyətlərində yeni nailiyyətlər arzulayıb.

Konfransda Yeni Azərbaycan Partiyasının üzvü olan fəal gənclər müxtəlif nominasiyalar üzrə YAP tərəfindən diplom və müvafiq qurumlar tərəfindən hədiyyələrlə mükafatlandırılıb.

Sonra “Azərbaycan gəncliyi üçün yeni çağırışlar: Əsas prioritetlər” mövzusunda panel iclası keçirilib.

# "Soft Computing" üzrə VIII ümumdünya konfransının açılış mərasimi



## Konfrans Lütfi Zadənin 100 illik yubileyinə həsr olunub

Fevralın 3-də görkəmli elm xadimi, professor Lütfi Zadənin 100 illik yubileyinə həsr olunmuş "Soft Computing" üzrə səkkizinci ümumdünya konfransının onlayn şəkildə açılış mərasimi keçirilib.

Konfrans Azərbaycan Milli Elmlər Akademiyası İdarəetmə Sistemləri İnstitutu, Berkli Kaliforniya Universiteti və Azərbaycan Dövlət İqtisad Universitetinin təşkilatçılığı, Milli Elmlər Akademiyası, Təhsil, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliklərinin dəstəyi ilə baş tutub.

Konfransın açılış mərasimində iştirak edən təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, çağdaş dünyanın elm və təhsil tarixinə şanlı səhifələr yazmış, görkəmli elm xadimi, qeyri-səlis məntiq nəzəriyyəsi sahəsində elmi məktəb yaratmış Lütfi Zadənin anadan olmasının 100 illik yubileyinin doğma Vətənimizdə ölkə Prezidenti cənab İlham Əliyevin xüsusi sərəncamı ilə dövlət səviyyəsində qeyd olunması elm və təhsilimizin yaddaqalan bayramı olmaqla yanaşı, elm və təhsil xadimlərinin zəngin irsinə diqqət və qayğının təzahürü kimi yüksək dəyərləndirilməlidir.

Lütfi Zadənin bu günümüzün inqilabi texnologiyalarının yaranmasında müstəsna rolu olduğunu vurğulayan Firudin Qurbanov qeyd edib ki, həmyerlimizin ölkəmizdə də elm sahəsində layiqli tədqiqatçıları və irsinin davamçıları mövcuddur. Nazir müavini əlavə edib ki, istedadlı şagirdlərin aşkar edilməsi, onlarda fənlərin dərindən öyrənilməsinə marağın artırılması, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Zadənin daha yaxından tanıdılması məqsədilə ölkəmizin şagirdləri arasında məntiq olimpiadası keçirilir. Bundan başqa, dünya şöhrətli Azərbaycan alimi Lütfi Zadənin ideyalarının əcnəbi ölkə məktəbliləri arasında təbliği məqsədilə də olimpiada təşkil olunub.

Nazir müavini çıxışının sonunda böyük alimin nəinki adı, eyni zamanda onun elmi irsinin ölkəmizin elmi və iqtisadiyyatı üçün əlavə dəyərlər yaradacağına ümidvar olduğunu diqqətə çatdırıb.

Açılış mərasimində iştirak edən digər qonaqlar da öz növbəsində Lütfi Zadənin dünya elminin inkişafına verdiyi töhfələrdən danışıblar.

Konfransın ilk günü öz işini plenar sessiya və seksiyalarla davam etdirib.

Qeyd edək ki, konfrans 4-5 fevral tarixlərində də işini davam etdirəcək.

# İctimai dialoq, müzakirə, birgə işlə mövcud problemlər müəyyən edilməlidir

## BŞTİ-də İctimai Şura üzvləri ilə görüş keçirilib



Bakı Şəhəri üzrə Təhsil İdarəsində (BŞTİ) Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri ilə görüş keçirilib.

Görüşdə BŞTİ-nin müdiri Mehriban Vəliyeva, təhsil nazirinin müşaviri Elnur Nəsibov, İctimai Şuranın sədri Günel Səfərova, İctimai Şuranın üzvləri və BŞTİ-nin müvafiq struktur bölmə rəhbərləri iştirak ediblər.

Əsasən təhsilə ictimai baxış mövzusunda müzakirələr aparılan görüşdə məktəbə və müəllimə qarşı düzgün ictimai rəyin formalaşması barədə söhbət açılıb və qarşıda duran vəzifələrə dair fikirlər söylənilib.

BŞTİ-nin müdiri Mehriban Vəliyeva İctimai Şura üzvlərinə fəaliyyətlərində uğurlar arzulayıb və qarşılıqlı əməkdaşlıqdan məmnunluğunu ifadə edib. M.Vəliyeva BŞTİ-nin qarşıdakı müddətdə paytaxt təhsilinin yenilənməsi, qarşıya qoyulmuş hədəflərə çatması baxımından İctimai Şura ilə səmərəli əməkdaşlığa nail olunacağına inamını bildirib.

İdarə müdiri ötən il qazanılmış uğurlar və 2022-ci ildə həyata keçirilməsi nəzərdə tutulan işlər barədə məlumat verib. İdarə müdiri həmçinin İctimai Şuranın iştirakı ilə məktəblərdə pedaqoji kollektiv, valideyn və şagirdlərlə görüşlərin təşkilinin faydalı ola biləcəyini diqqətə çatdırıb.

Nazir müşaviri Elnur Nəsibov təhsil naziri adından görüş iştirakçılarını salamlayıb, İctimai Şuranın fəaliyyətinin səmərəli təşkilindən söz açıb. E.Nəsibov təhsilin daim inkişaf edən, təkmilləşən strateji sahə olduğunu bildirib.

E.Nəsibov həmçinin son günlər təhsillə bağlı baş verən bir sıra məsələlərə də toxunub. Bildirib ki, ictimai dialoq, müzakirə və birgə iş nəticəsində təhsillə bağlı mövcud problemlər müəyyən edilməli və onlar ictimai səviyyədə müzakirə olunmalıdır. O, bu işdə daha yaxşı nəticələr əldə etmək üçün cəmiyyətin və ictimaiyyətin təmsilçisi kimi İctimai Şuranın dəstəyinə ciddi ehtiyac duyulduğunu diqqətə çatdırıb.

Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri təhsilin cəmiyyətdəki rolu, məktəb və müəllimin nüfuzu, təhsilverənlərin fəaliyyətinin stimullaşdırılması, pedaqoji təhsildəki yeniliklərin müəllimlərə operativ ötürülməsi üçün məqsədyönlü təlimlərin təşkili, yeni yanaşmalarla təcrübənin sintezi, məktəb direktorları və müəllimlərin fəallığının artırılması, müasir qiymətləndirmə mexanizmlərinin tətbiqi, monitorinqlərin hədəflərinin dəqiq müəyyənləşdirilməsi və digər müvafiq məsələlər üzrə təklif və tövsiyələrini səsləndiriblər.

Müzakirələrdə qarşılıqlı əməkdaşlığın davam etdirilməsi qərara alınıb.

# Apellyasiya Şurasının növbəti iclası

Yanvarın 28-də təhsil nazirinin müavini, Nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə şuranın növbəti iclası keçirilib.

"Microsoft Teams" platforması üzərindən keçirilən iclasda Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin Beynəlxalq əlaqələr sektorunun məsləhətçisi vəzifəsinə namizəd Elmira Səmədzadənin, Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin Qiymətləndirmə sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizədlər Aidə Baxışlının və Ağca Ağayevanın müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyaları üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb. 1 nəfərin şikayətinin təmin olunması və 2 nəfərin şikayətinin təmin olunmaması barədə Şura tərəfindən qərar qəbul olunub.

# Məktəbin İnkişaf Planının hazırlanmasına start verilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsi Təlimə Dəstək Mərkəzi (TDM) tərəfindən Məktəbin İnkişaf Planının hazırlanmasının ilk mərhələsinə start verilib.

Məktəbin İnkişaf Planının hazırlanması istiqamətində TDM-in metodistləri paytaxtdakı 5 ümumi təhsil müəssisəsində (45, 155, 201, 306 və 310 nömrəli) pedaqoji kollektivlərə görüşlər keçirir.

Görüşlərdə TDM-in metodistləri məktəblərdəki real vəziyyətlə tanış olmaq üçün dərs müşahidələri aparır, təlim-tərbiyə prosesinin inkişafı istiqamətinə yaxından dəstək göstərmək məqsədilə məktəb kollektivləri ilə müzakirələr təşkil edirlər.

Məktəb heyəti ilə birgə Məktəbin İnkişaf Planının hazırlanmasının əsas məqsədi Təhsildə Keyfiyyət Təminatı Agentliyinin inspeksiya nəticələrinə əsasən aşkarlanmış çatışmazlıqların aradan qaldırılmasından ibarətdir.

Qeyd edək ki, Məktəbin İnkişaf Planının hazırlanması növbəti mərhələlərdə digər məktəblərdə də davam etdiriləcək.

# "Təhsilə ictimai baxış"

## Silsilə müzakirələrə başlanılır

Təhsil Nazirliyi yanında İctimai Şuranın və "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə "Təhsilə ictimai baxış" adlı silsilə müzakirələr təşkil olunacaq.

Məqsəd bütün maraqlı tərəflərlə səmərəli dialoq qurmaq və mövcud vəziyyəti yaxşılaşdırmaq üçün reallıqları müzakirə etmək, ictimai rəyi öyrənmək və təhsildə inkişafın mümkün istiqamətlərini nəzərdən keçirməkdir.

"Təhsilə ictimai baxış" silsiləsindən 4 fevral 2022-ci il tarixində keçiriləcək ilk müzakirə təlim və tərbiyə mövzusuna həsr olunacaq. Burada təlim və tərbiyə prosesinin təşkilində mövcud vəziyyət, problem və səbəbləri, çıxış yolları, o cümlədən təlim və tərbiyənin vəhdətinin səmərəli təşkil olunması məsələlərinə toxunulacaq.

Silsilə müzakirələrdə təhsil ekspertləri, məktəb direktorları, valideyn və müəllimlər, psixoloq və sosioloqlar, eləcə də QHT nümayəndələri, beynəlxalq təşkilatların əməkdaşlarının iştirakı nəzərdə tutulur.

Qeyd edək ki, "Təhsilə ictimai baxış" silsilə müzakirələri təhsil naziri Emin Əmrullayevin təhsilin təkmilləşdirilməsində ictimai rəyin öyrənilməsinin əhəmiyyəti ilə bağlı çağırışına cavab mahiyyəti daşıyır.

# BMU-nun komandası model peyk müsabiqəsinin qalibi olub



Bakı Mühəndislik Universitetinin (BMU) tələbələrindən ibarət "Rodimus" komandası "CanSat Azərbaycan 2020" model peyk müsabiqəsinin qalibi olub. Müsabiqənin növbəti mərhələsinə ("Reallaşdırma") 6 universiteti təmsil edən komandalar buraxılıb və BMU-nun komandası ən yüksək nəticə ilə ilk yeri tutub.

Universitetdən bildirilib ki, COVID-19 pandemiyası ilə əlaqədar təxirə salınan müsabiqə "Azərkosmos" ASC-nin və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilib.

Müsabiqənin təşkil olunmasında əsas məqsəd ali təhsil müəssisələrinin tələbələri arasında kosmik sahəyə marağın artırılması, eyni zamanda, bu sahədə fundamental bilik və bacarıqlar formalaşdıraraq yerli kadrların yetişdirilməsidir.

Müsabiqədə gənclərin qarşısına qoyulan tapşırıqlar elektronika, mexanika, proqramlaşdırma kimi mühəndislik istiqamətləri üzrə nəzəri və təcrübi biliklərin tətbiqinə və inkişaf etdirilməsinə şərait yaradır. Müsabiqənin şərtlərinə əsasən, komandalar tərəfindən kiçik peyk modeli hazırlanır. Model müəyyən edilmiş hündürlükdən buraxıldıqdan sonra yerə enərkən, təyin olunmuş missiyasını yerinə yetirir.

# Tələbələr qış düşərgəsində

## Riyaziyyat üzrə analiz qabiliyyəti olan tələbələr müxtəlif layihələrə cəlb ediləcək



Fevralın 5-dən Quba rayonunda təşkil edilən tələbələrin qış düşərgəsi (Winter bootcamp) fəaliyyətə başlayır. Artıq düşərgənin sakinləri də məlum olub. Onlar 31 nəfərdir. Gənclərin bir həftəlik kamp macərası sabah Azərbaycan Respublikasının Təhsil İnstitutunun (ARTİ) təşkil etdiyi avtobusun yola çıxmasıyla start götürəcək.

### Riyaziyyatçılar düşərgəsi

Düşərgənin təşkilinin təşəbbüsçüsü Təhsil Nazirliyi, icraçısı Təhsil İnstitutudur. İnstitutun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri Tural Alışov "Azərbaycan müəllimi" qəzetinə bildirib ki, bu layihə ilə tələbələr arasında canlanma yaratmaq niyyətindədirlər: "Tələbələr arasında ali riyaziyyata marağı artırmağa çalışırıq. Riyaziyyatın yeni texnologiyalar və süni intellekt sahəsində tətbiqinə dair məlumatların verilməsi və qış tətili dövründə tələbələrin riyazi biliklərinin gücləndirilməsi düşərgənin təşkilində əsas məqsədlərdəndir. Layihədən əsas gözləntimiz odur ki, riyaziyyat sahəsi üzrə yüksək elmi biliklərə malik, analiz qabiliyyəti olan tələbələri aşkar edək, onlarla müxtəlif layihələrdə sıx əməkdaşlıq quraq. Hesab edirik ki, bu layihə Təhsil Nazirliyi və Təhsil İnstitutunun birgə layihəsi olaraq tələbələr arasında canlanmaya səbəb olacaq".

### Düşərgəyə seçim yekunlaşdı

Düşərgə sakinlərinə gəlincə, onlar əvvəlcədən də elan olunduğu kimi, ali təhsil müəssisələrinin riyaziyyat və texniki ixtisaslarında bakalavriat səviyyəsi üzrə təhsil alan III və IV kurs tələbələri, həmçinin magistratura səviyyəsi üzrə təhsil alanlar arasından seçilib. Seçim 2 seansda təşkil edilən imtahan yolu ilə aparılıb. Baza biliklərinin yoxlanılması məqsədilə təşkil olunan imtahan yanvarın 29-da S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasında keçirilib.Tələbələr ali riyaziyyat bölməsindən "Riyazi analiz", "Cəbr və ədədlər nəzəriyyəsi" fənləri üzrə 28 qapalı, 2 açıq suala cavab veriblər və bu imtahanlara qatılan 320 nəfərdən 31 nəfər ən yüksək nəticə ilə fərqlənib. Maraqlıdır ki, fərqlənən riyaziyyatçılar arasında çoxu - 16 nəfəri qızdır.

Qalib tələbələr, əsasən, Bakı Dövlət Universitetinin (BDU), Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) və Bakı Mühəndislik Universitetinin (BMU) tələbələridir.

Düşərgə iştirakçısı olmaq uğrunda təşkil edilən bilik yarışına çağırış ilk növbədə Təhsil Nazirliyi və Təhsil İnstitutunun sosial media hesablarından həyata keçirilib. T.Alışovun sözlərinə görə, universitetlərdə, SABAH qruplarında məlumatlar paylaşılıb, universitetlərin rəsmi şəxsləri məlumatlandırılıb, "Kod Academy" layihəsinin iştirakçılarına ayrıca məlumat verilib: "Hər halda ilk dəfə olduğuna görə təbliğat işini ürəyimizcə qura bilmədik. Bu istiqaməti növbəti layihələrimizdə təkmilləşdirəcəyik. Buna baxmayaraq, hesab edirik ki, riyaziyyatçı gənclərin böyük əksəriyyətinə səsimizi çatdıra bilmişik".

T.Alışov deyib ki, düşərgənin təşkil olunacağını bilsələr də, iştirak imkanı olmayanlar da var: "İmtahanları yubanıb kamp vaxtına düşənlər oldu. Məsələn, Gəncə Dövlət Universitetinin riyaziyyatçıları sırf bu səbəbdən imtahanlara qatılmadılar".

Düşərgə çərçivəsində 15 təcrübəli müəllim tələbələrə təlimlər keçəcək, müxtəlif sahələrdə çalışan riyaziyyatçılar tələbələrlə söhbət aparacaqlar. Riyaziyyata sırf elmi yanaşma, riyaziyyatın sənaye ilə əlaqələrindən danışacaqlar. Nəzərdə tutulan 24 təlimdən sonra qiymətləndirmə aparılacaq.

T.Alışovun sözlərinə görə, tələbələr düşərgədə, sadəcə riyazi təhlillər aparmayacaq, riyaziyyat müəllimi olmayan tanınmış şəxslərlə birlikdə riyaziyyatın həyatla əlaqəsini müzakirə edəcəklər. Məsələn, keçmiş olimpiadaçılardan olan və hazırda böyük bir şirkət direktoru Azad Namazov onlara riyaziyyatla sənaye arasındakı əlaqədən, Təhsil Nazirliyində Lisey və gimnaziyalar üzrə sektor müdiri Fuad Qarayev riyaziyyat üzrə olimpiada hərəkatından, Təhsil İnstitutunun direktoru Rüfət Əzizov dizayn təfəkküründən danışacaqlar. İştirakçıların əylənərək öyrənməsi və asudə vaxtın səmərəli təşkili məqsədilə düşərgədə müxtəlif idman və bilik yarışları təşkil olunacaq.

T.Alışov deyib ki, həftə ərzində keçirilmiş 24 təlim və təlimlərin yekunu olaraq aparılan qiymətləndirmə elmi istiqamətdə olacaq. Keçiriləcək test imtahanının nəticələrinə uyğun olaraq, ilk 3 yeri qazanan iştirakçıya qiymətli hədiyyələr və sertifikat, bütün iştirakçılara isə sertifikat təqdim olunacaq.

Bir sözlə, "Qış düşərgəsi"nin iştirakçıları əyləncəli, hərəkətli, rəngli bir həftə yaşayacaq, ən önəmlisi, "Niyə riyaziyyatı öyrənək" sualına cavab tapacaq.

**Ruhiyyə DAŞSALAHLI**

# Mövcud qiymətləndirmə sənədi təkmilləşdirilməlidirmi?



İlahə TAĞIYEVA,
*Təhsil İnstitutunun Şagird nailiyyətlərinin qiymətləndirilməsi şöbəsinin müdiri*

**Təhsilin keyfiyyətinə təsir edən amillərdən biri olan qiymətləndirmə şagirdlərin öyrənmə nailiyyətlərinin yüksəldilməsində mühüm rol oynayır. Hazırda ümumi təhsil müəssisələrində şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumi Təhsildə Qiymətləndirmə Konsepsiyası" və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2018-ci il 28 dekabr tarixli 8/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmənin) aparılması Qaydası" əsasında həyata keçirilir.**



Şahanə MƏMMƏDLİ,
*Təhsil İnstitutunun Şagird nailiyyətlərinin qiymətləndirilməsi şöbəsinin mütəxəssisi*




Şəkil 1.




Şəkil 2.




Şəkil 3.

## Təhsil İnstitutu mövzu ilə əlaqədar ictimai sorğu keçirib

Rəqabətə əsaslanan əmək bazarının tələblərinə uyğun insan kapitalının inkişafına ehtiyacın yaranması və dövrün tələbinə əsasən təhsildə yeni yanaşmaların formalaşması öz növbəsində qiymətləndirmə sistemində də yeniliklərin həyata keçirilməsini labüd edir. Mövcud qiymətləndirmə sənədinin təkmilləşdirilməsinə münasibəti müəyyən etmək məqsədilə Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən onlayn ictimai sorğu keçirilmişdir-.Ümumilikdə sorğuda 536 nəfər iştirak etmişdir. Sorğunun nəticələri təqdim edilərkən beynəlxalq qiymətləndirmə tədqiqatlarında (PIRLS, TIMSS, PISA,-TALIS və s.) iştirak edən ayrı-ayrı təhsil sistemlərinin qiymətləndirmə siyasətlərində və bununla bağlı aparılan müxtəlif tədqiqatlarda qeyd olunan məsələlər də nəzərə çatdırılır.

İlkin olaraq, mövcud qiymətləndirmə sənədi ilə bağlı iştirakçıların fikirləri öyrənilib; sorğuda iştirak edənlərin 56%-i sənədi qismən effektiv hesab edir və bu səbəbdən təkmilləşdirilməyə ehtiyac olduğunu bildirir. Ümumi təhsilin məzmununun yenilənməsi qiymətləndirmə siyasətində də yeni yanaşmaların tətbiq olunmasını tələb edir. Beləliklə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" mövcud qiymətləndirmə sənədinin təkmilləşdirilməsi ehtiyacını zəruriləşdirir.

Hazırda Azərbaycanın ümumi təhsil sistemində şagirdlərin yarımillik və illik qiymətləri summativ qiymətləndirmə nəticələri əsasında müəyyən olunur. Kiçik summativ qiymətləndirmə hər yarım ildə 3 dəfədən az, 6 dəfədən çox olmamaq şərtilə keçirilir. Bununla bağlı sorğu respondentlərinin 62%-i böyük (BSQ) və 47%-i kiçik summativ qiymətləndirmələrin (KSQ) azaldılmasının lehinədir *(şəkil 1)*.

Elmi ədəbiyyata əsasən summativ qiymətləndirmələrin bir tədris ili boyunca keçirilmə tezliyi ilə bağlı vahid standart mövcud deyil. Bu, müəllimin məqsədindən və təlim nəticələrindən asılı olaraq hər tədris vahidinin, yarımillik və illiklərin sonunda ola bilər (Vero&Chukwuemeka, 2019). Formativ və summativ qiymətləndirməyə dair aparılan eyni tədqiqatda qeyd olunur ki, balanslı olduğu təqdirdə summativ qiymətləndirmə də diaqnostik və formativ qiymətləndirmə qədər əhəmiyyətlidir. Summativ qiymətləndirmələr şagirdlərin tədris vahidinin sonunda öyrəndiklərini ölçmək, şagirdlərin müvəffəqiyyət səviyyələrini müəyyən etmək, məktəbi bitirməsinə dair sertifikat əldə etmək və ya müəyyən peşələrə yiyələnmək üçün tələb olunan standartları ödədiklərini yoxlamaq vasitəsi kimi istifadə olunur (Nworgu, 2015) *(şəkil 2)*.

Summativ qiymətləndirmə ilə müqayisədə formativ qiymətləndirmə tədris prosesi ərzində müəllimə şagirdin öyrənmə dinamikası ilə bağlı aydın məlumat verir. Bu məlumat sayəsində həm şagirdlər qoyulmuş standartlara hansı səviyyədə cavab verdiklərini öyrənirlər, həm də müəllimlər tədris zamanı yol verdikləri nöqsanları aydınlaşdırırlar. Diaqramdan da göründüyü kimi, sorğuda iştirak edənlərin 56%-i qiymətləndirmə məlumatlarının şagirdin öyrənməsi üçün faydalı olduğunu düşünür. Bu, PISA (Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı) beynəlxalq qiymətləndirmə tədqiqatlarının nəticələri ilə uyğunluq təşkil edir. Belə ki, PISA-nın 2018-ci il üzrə nəticələrinə görə, əlverişsiz şəraiti olan məktəblərdə təhsil alan 77% şagird qiymətləndirmə nəticələri əsasında tədrisini təkmilləşdirən məktəblərdə təhsil almaq üçün axın edir. Bu isə şagirddə qiymətləndirməyə münasibətin formalaşmasının göstəricisidir. Belə ki, bu fikir sorğu iştirakçılarının 76%-nin şagird qiymətləndirilərkən onun həmin qiymətləndirməyə münasibətinin öyrənilməsinə "Bəli" cavab verməsi ilə təsdiqlənir.

Bununla bağlı tədqiqatçılardan Lorraine Stefani müəllimlərə qiymətləndirmə növlərinə, məsələn, həmyaşıd və özünüqiymətləndirmə, şagirdin qiymətləndirməyə münasibəti, qrup işlərinin qiymətləndirilməsi və onlayn qiymətləndirmə kimi məsələləri dərindən öyrənməyi, buna kifayət qədər vaxt ayırmağı tövsiyə edir. Eyni zamanda, bu qiymətləndirmə üsulları demək olar ki, həmişə dərs zamanı şagirdlər tərəfindən irəli sürülür və şagirdlərin istəyi ilə bu üsulları təmin etmək öyrənmənin keyfiyyətini artırır (Stefani, 2004) *(şəkil 3)*.

Özünüqiymətləndirmə bacarığını da özündə cəmləşdirən "Ömürboyu öyrənmə" prinsipini təbliğ edən bir sıra ölkələrin (Avstriya, Belçika, Fransa, Finlandiya, Almaniya, Macarıstan və s.) milli kurikulumlarında təməl səriştələrin (tənqidi düşüncə, yaradıcı yanaşma, problem həlletmə və s.) inkişafı ön plana çəkilir (Looney, 2009). Respondentlərin 92%-nə görə bacarıq yönümlü fəaliyyətlər qiymətləndirilməlidir. Bu, respondentlərin PISA və PIRLS (Oxu bacarıqlarının inkişafı üzrə beynəlxalq tədqiqat) beynəlxalq qiymətləndirmə tədqiqatlarının şagirdlərin bilikləri ilə yanaşı bacarıqlarının da ölçülməsi fikrinə uyğundur (PISA, 2018).

Sorğu nəticələrinin təhlili bir daha onu sübut edir ki, öyrənmə gözlə görünməyən yerdə, yəni idraki proses olaraq şagirdlərin beynində baş verir və müvafiq olaraq, öyrənmə performansla qiymətləndirilməlidir. Şagird performansının qiymətləndirilməsi təhsildə fənlər üzrə məzmunun və müəllimin metodiki yanaşmasının təkmilləşdirilməsi kimi bir çox vacib məqsədlərə xidmət edə biləcək məlumatları təmin edir.

Gələcək sorğularda qiymətləndirmə haqqında daha geniş məsələlərə toxunaraq ayrı-ayrı hədəf qrupların, təhsil müəssisələrinin rəhbərlərinin, təhsilverənlərin, valideynlərin və yuxarı sinif şagirdlərinin öyrənmə üçün qiymətləndirmə (assessment for learning), öyrənmə kimi qiymətləndirmə (assessment as learning), öyrənmənin qiymətləndirilməsinə (assessment of learning) dair münasibətləri öyrəniləcək.

# MDU müasirləşmə mərhələsində: yeni hədəflər və əsas nailiyyətlər




**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

## 2021/2022-ci tədris ilinin payız semestri: ali təhsil mühiti və idarəetmədə yeniliklər

### Ali təhsil mühitinin təkmilləşdirilməsi

Son dövrdə Mingəçevir Dövlət Universitetində (MDU) idarəetmənin və ali təhsil mühitinin yeni dövrün tələblərinə uyğun təkmilləşdirilməsi istiqamətində önəmli addımlar atılmışdır. Universitetdə müasir və səmərəli ali təhsil mühitinin təmin edilməsi məqsədilə çevik və şəffaf idarəetmə, ictimai hesabatlılıq, təhsilverənlərin və təhsilalanların hərtərəfli inkişafı, sənaye ilə işbirliyi, qarşılıqlı faydalı əməkdaşlıq, tələbəyönümlülük, tələbə həyatı, kommunikasiya və cəmiyyətə fəal inteqrasiya məsələlərinə prioritet əhəmiyyət verilir.

### Struktur dəyişiklikləri, çevik və şəffaf idarəetmə

Cari tədris ilində universitet idarəçiliyində çevik, onlayn alətlərin və şəffaf mexanizmlərin geniş tətbiqinə mühüm diqqət göstərilmişdir. MDU-da mövcud struktur bölmələri arasında koordinasiyanın gücləndirilməsi və onların fəaliyyətinin səmərəliliyinin artırılması, yeni struktur bölmələrin yaradılması, əməkdaşların stimullaşdırılması və sosial rifahının yüksəldilməsi istiqamətində müvafiq addımlar atılmışdır.

Ölkəmizdə ali təhsilə göstərilən yüksək dövlət qayğısı, təhsil işçilərinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması prioriteti və MDU-nun mövcud maliyyə imkanları əsas tutularaq Elmi Şuranın müvafiq qərarına əsasən universitetin professor-müəllim və inzibati-texniki heyət üzvlərinin aylıq əməkhaqları orta hesabla 20 faiz artırılmışdır.

Milli ali təhsil sisteminin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər, dünya ali təhsil məkanında baş verən dəyişikliklər, universitetin strateji hədəfləri, qabaqcıl yerli və beynəlxalq təcrübə, müasir və daha səmərəli idarəetmənin təmin edilməsi zəruriliyi nəzərə alınaraq payız semestrində universitetin strukturunun təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, hesabat dövründə MDU-da İnformasiya Texnologiyaları fakültəsinin yaradılması, Mühəndislik fakültəsinin yenidən qurulması, Pedaqoji fakültənin Təhsil fakültəsi adlandırılması, Magistratura və Doktorantura Təhsil Mərkəzinin, Dayanıqlı İnkişaf və Regional İnnovasiyalar Tədqiqat Mərkəzinin, Karyera və İnkişaf Mərkəzinin yaradılması haqqında müvafiq qərarlar qəbul olunmuşdur. Eyni zamanda, sözügedən qərarların icrasının təmin edilməsi, eləcə də tədrisin keyfiyyətinin yüksəldilməsi və elmi fəaliyyətin səmərəliliyinin artırılması məqsədilə bir sıra İşçi Qrupları yaradılmışdır.

Tələbələrin universitet idarəçiliyinə daha aktiv qoşulmalarının təmin edilməsi hesabat dövründə də diqqət mərkəzində saxlanılmışdır. MDU-nun Elmi Şurası və fakültə elmi şuralarında, eləcə də imtahan sessiyasının obyektiv, şəffaf, ədalətli və mütəşəkkil keçirilməsi məqsədilə yaradılmış İmtahan Qərargahı və Apellyasiya komissiyalarının tərkibində tələbələr fəal təmsil olunmuşlar. Eyni zamanda, MDU-da "İmtahanlara dəstək qrupu" və "Qaynar xətt"in fəaliyyət göstərməsi imtahan sessiyasında operativliyin təmin edilməsinə, yarana biləcək neqativ halların dərhal aradan qaldırılmasına xidmət etmişdir.

Bununla yanaşı, tələbə, magistrant, əməkdaş və valideynlərin arzu və təşəbbüslərini dinləmək, onları maraqlandıran sualları operativ cavablandırmaq məqsədilə cari payız imtahan sessiyası ərzində çevik onlayn kommunikasiya vasitələrindən biri kimi universitet rektorunun iştirakı ilə hər həftə "Açıq qapı" günləri keçirilmişdir. Habelə, valideynlərin universitetdə təhsil mühiti ilə tanış olmaları, eləcə də imtahan proseslərini izləmələri üçün müvafiq şərait təmin edilmişdir.

Hesabat dövründə Mingəçevir şəhərinin tanınmış və nüfuzlu ziyalılarının təmsil olunduğu MDU-nun İctimai Nəzarət Şurası fəaliyyətini uğurla davam etdirmişdir. Şura tədrisin və imtahan sessiyasının təşkili, tələbə və valideynlərin müraciətlərinə baxılması prosesində, universitetlə şəhər ictimaiyyəti arasında kommunikasiyanın qurulmasında fəal iştirak etmişdir.

### Təhsilverənlərin və təhsilalanların hərtərəfli inkişafı

MDU-da akademik və inzibati heyət üzvlərinin, təhsilalanların hərtərəfli inkişafının təmin edilməsi məqsədilə onların əlavə bilik və bacarıqlar qazanmasına imkan verən təlimlərin keçirilməsinə xüsusi diqqət yetirilmişdir.

*Şəxsi inkişaf və karyera təlimləri*

2021-ci ilin avqustunda universitetin təcrübəli akademik və inzibati heyət üzvləri tərəfindən tələbələr və mingəçevirli könüllülər üçün "Komanda ilə işləmə bacarıqları", "Karyera və şəxsi inkişaf", "Effektiv ünsiyyət", "MDU-da təhsil almağın üstünlükləri", "Əmək bazarı", "Təqdimat bacarıqları" və "Bədən dili" mövzularında təlimlər keçirilmişdir.

2021-ci ilin noyabrın 19-da Türkiyədən olan beynəlxalq təlimçilər İşıl Keskin Şahan və Soner Şahan MDU-da gənc əməkdaşları və tələbələr üçün "İnnovativ idarəetmə bacarıqları" və "XXI əsrdə karyera inkişafı üçün peşəkar bacarıqlar" mövzularında praktiki seminarlar keçirmişlər.

Bundan əlavə, hesabat dövründə MDU-da "Nə üçün işarə dilini bilməliyik?", "Səlis danışığınla fərqlənməyi bacar", "Peşəkar CV hazırlamağın qaydaları", "Müsahibəyə hazırlıq", "Xaricdə təhsil proqramları" və digər mövzularda təlimlər təşkil edilmişdir.

*Sahibkarlıq bacarıqlarının inkişafı*

2021-ci ilin 5-10 avqust tarixlərində MDU-nun "Seed" Tələbə Startap Mərkəzinin təşkilatçılığı ilə "Sahibkarlıq bacarıqlarının inkişafı" mövzusunda tələbə və magistrantlar üçün beşgünlük onlayn təlimlər keçirilmişdir. Təcrübəli mütəxəssislər tərəfindən keçirilən təlimlər tələbə və magistrantlarda innovativ sahibkarlıq fürsətlərini dəyərləndirmək, müştəri ehtiyaclarını və dəyər təklifini müəyyənləşdirmək, uğurlu biznes modeli və startap yaratmaq istiqamətində bilik və bacarıqların formalaşdırılması məqsədini daşımışdır.

**(Əvvəli qəzetin 14 yanvar tarixli sayında)**

2021-ci ilin noyabrında tərəfdaşlarla birlikdə "Öz biznesinə başla", "Biznesdə satış", "Biznesmen psixologiyası", "Layihələrin təşkili və idarə olunması", "Təhsil və biznes" mövzularında təlimlər keçirilmişdir.

*Xarici dil üzrə bilik və bacarıqların artırılması*

Hesabat dövründə MDU-da ABŞ-ın Azərbaycandakı Səfirliyi və "Resource Hub" ilə tərəfdaşlıq çərçivəsində "Bu gün hərəkət et, sabah dəyiş" adlı ingilis dilinin tədrisi ilə bağlı layihə həyata keçirilmişdir. Dörd aylıq layihədə MDU-nun 20 müəllimi və 30 tələbəsi iştirak etmişdir. Layihə ingilis dili müəllimlərinin yenilikçi tədris yanaşmasının təmin edilməsinə, tələbələrin dil bilikləri və bacarıqlarının artırılmasına hədəflənmişdir.

Bundan əlavə, tələbə və magistrantlar, eləcə də gənc əməkdaşlar üçün "Xarici dil öyrənmə sənəti" mövzusunda onlayn təlimlər keçirilmişdir.

Dekabrda beynəlxalq təlimçi Harry Park tərəfindən "English with Harry" adlı ingilis dili təlimləri keçirilmişdir. Onlayn formatda təşkil edilən təlimlərin başlıca məqsədi tələbələrin ingilis dili bacarıqlarının yeni metodlarla inkişaf etdirilməsi olmuşdur.

*Rəqəmsal bacarıqların artırılması*

2021-ci ilin oktyabr ayında MDU-nun tələbə və magistrantları üçün "Microsoft Teams proqramından istifadə qaydaları" mövzusunda onlayn təlimlər təşkil edilmişdir. İnformasiya texnologiyaları kafedrasının müəllimləri tərəfindən keçirilən təlimlərdə "Microsoft Teams" proqramının strukturu, imkanları, funksiyaları və davamlı yenilənən alətləri haqqında maarifləndirici məlumatlar verilmişdir.

Bundan əlavə, hesabat dövründə universitetin akademik və inzibati heyət üzvlərinin, tələbələrin və magistrantların İKT üzrə bilik və bacarıqlarının artırılması məqsədilə onlayn və ənənəvi formatlarda müntəzəm olaraq təlimlər keçirilmişdir.

*Tələbələrə media bacarıqlarının ötürülməsi*

İqtisadi və Sosial İnkişaf Mərkəzi və digər tərəfdaşların birgə təşkil etdiyi "Tələbə Mediası" layihəsi çərçivəsində MDU-nun tələbələri düzgün mövzu seçimi, onlayn və oflayn araşdırma, sorğu və müsahibə aparma, keyfiyyətli məqalə, fotoreportaj, video və infoqrafik hazırlama, sosial media menecmenti və digər mövzularda təlimlərdə iştirak etmişlər.

*Pedaqoji kadrların peşəkar inkişafı*

Hesabat dövründə "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platforması ilə birlikdə "Pedaqoji kadrların peşəkar inkişafı" layihəsi reallaşdırılmışdır. Layihə çərçivəsində "Dərsin Planlaşdırılması" və "Müasir Təlim Strategiyaları" mövzularında təlimlər keçirilmişdir.

*Tədqiqat bacarıqlarının inkişafı*

2021-ci ilin dekabrın 7-də MDU və ADA Universitetinin birgə təşkilatçılığı ilə "Ali təhsil müəssisəsində elmi-tədqiqat işlərinin gücləndirilməsi yolları" mövzusunda elmi-praktik seminar keçirilmişdir. ADA Universitetinin təcrübəli əməkdaşları "Elmi-tədqiqat işi üçün məlumatların toplanması və təhlili" və "Universitetlər arasında birgə elmi-tədqiqat işlərinin təşkili" mövzularında təqdimatlarla çıxış etmişlər. Seminarda ABŞ-ın Azərbaycandakı Səfirliyinin maliyyələşdirdiyi və ADA Universitetinin reallaşdırdığı "Azərbaycanda Tədqiqat Potensialının Gücləndirilməsi" layihəsi çərçivəsində keçirilmiş "Tədqiqat metodları" və "Akademik yazı" kurslarını uğurla başa vurmuş MDU-nun akademik heyət üzvləri və magistrantlarına sertifikatlar təqdim edilmişdir.

### Sənaye ilə işbirliyinin gücləndirilməsi

Regional ekosistemin mühüm aktorlarından birinə çevrilməyi hədəfləyən MDU-da kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, tədrisin məzmununun təkmilləşdirilməsi və tədqiqatların nəticəyönümlüyünün artırılması məqsədilə müxtəlif formatlı təhsil-sənaye əməkdaşlığının inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilir.

*"Universitet-peşə məktəbi-sənaye" üçtərəfli əməkdaşlıq formatı*

MDU, Mingəçevir Peşə Məktəbi (MPM) və "Azmade Group" MMC şirkəti arasında "universitet-peşə məktəbi-sənaye" formatında üçtərəfli əməkdaşlıq hesabat dövründə uğurla davam etdirilmişdir. Avqust ayında Şəmkir şəhərində yerləşən və "Azmade Group" MMC-yə daxil olan Zəyəm Texnologiyalar Parkında (ZTP) "Yay Təcrübə Proqramı" reallaşdırılmışdır. Təcrübə proqramında MDU-nun 5 və MPM-in 2 tələbəsi iştirak etmişdir. Bir aylıq təcrübə müddətində tələbələr ZTP tərəfindən bütün lazımi şəraitlə təmin olunmuş və onlara müvafiq qaydada əməkhaqqı ödənilmişdir.

*"Azərbaycan İES" MMC ilə əməkdaşlıq*

MDU və "Azərbaycan İES" MMC ilə əməkdaşlıq çərçivəsində ekskursiya, "dəyirmi masa" və elmi-praktik konfrans keçirilmişdir. Bununla yanaşı, 2021-ci ilin noyabrın 22-dən dekabrın 6-dək MDU tələbələri üçün "Azərbaycan İES"-də iki həftəlik təlim-təcrübə proqramı təşkil edilmişdir. Universitetin Mühəndislik fakültəsinin 16 tələbəsi təlimlərdə iştirak etmiş, istehsalatla yaxından tanış olmuş, səriştəli kadrların bilik və təcrübələrindən faydalanmışlar.

*"Atəşgah" Sığorta Şirkəti ilə əməkdaşlıq*

Hesabat dövründə "Atəşgah" Sığorta Şirkəti ilə MDU arasında əməkdaşlıq əlaqələri yaradılmışdır. Hər iki qurumun rəhbər və əməkdaşları arasında keçirilən görüşlərdə əməkdaşlıqdan başlıca gözləntilər, sığorta və maliyyə sahəsində karyera quracaq tələbələrin əmək bazarının tələblərinə uyğun praktiki bilik və bacarıqlarının artırılması imkanları, məqsədyönlü təlim-təcrübə proqramları və qarşılıqlı maraq doğuran digər istiqamətlər üzrə birgə reallaşdırıla bilən fəaliyyətlər müzakirə edilmişdir. Əməkdaşlıq çərçivəsində noyabr ayında iki həftəlik təlim-təcrübə proqramı reallaşdırılmış və MDU-nun 10 tələbəsi sığorta şirkətində biznesin və risklərin idarə edilməsi, sığorta fəaliyyətinin əsasları, təqdimat və kommunikasiya bacarıqları ilə bağlı təcrübi təlimlərə qoşulmuşdur.

*"Kapital Bank" ASC ilə əməkdaşlıq*

Hesabat dövründə "Kapital Bank" ASC Mingəçevir filialı ilə əməkdaşlıq çərçivəsində tələbələrə təcrübə keçmələri üçün lazımi şərait təmin, smart tələbə kartları təqdim edilmiş, eləcə də birgə nəzəri-praktiki seminarlar təşkil olunmuşdur.

### Çoxşaxəli tələbə fəaliyyətləri

MDU-da tələbəyönümlü məzmunun yaradılmasına, tələbə gənclərin hərtərəfli inkişafına, onların universitet idarəçiliyində fəal təmsil olunmasına, çoxşaxəli könüllülük fəaliyyətinə cəlb edilməsinə və tələbə təşkilatlarının fəaliyyətinin gücləndirilməsinə xüsusi diqqət yetirilir.

*"Heydər Əliyev və Azərbaycan tarixi" VII ümumrespublika bilik yarışında*

2021-ci ilin noyabrın 12-də Heydər Əliyev Mərkəzinin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən "Heydər Əliyev və Azərbaycan tarixi" VII ümumrespublika bilik yarışında MDU-nun tələbələrdən ibarət komandası 11-ci yerdə qərarlaşmışdır. Yarışda ölkənin 48 ali təhsil müəssisəsi təmsil olunmuşdur.

*Bakı Qida Hakatonununda birincilik*

MDU-nun "Agrinova" komandası Bakı Qida Hakatonunun qalibi olmuş və 5000 avro məbləğində pul mükafatı qazanmışdır. 2021-ci ilin 27-28 noyabr tarixlərində keçirilən hakaton Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi və digər tərəfdaşların birgə təşkilatçılığı ilə baş tutmuşdur.

*MDU-nun startap komandasının uğuru*

MDU-nun "Crisis Heroes" startap komandası "Artificial Irrigation" (süni suvarma) süni intellekt əsaslı startap ilə müvafiq dövlət qurumları tərəfindən birgə təşkil edilən "from Start to Smart" layihəsinin inkubasiya mərhələsində fəal iştirak etmişdir.

*Mini-futbol üzrə şəhər turnirlərində qalibiyyət*

MDU tələbələrindən ibarət komanda Mingəçevir şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və YAP Mingəçevir şəhər təşkilatının birgə təşkilatçılığı ilə Azərbaycanın dövlət müstəqilliyinin 30-cu və Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümünə həsr olunmuş mini-futbol üzrə ali və orta ixtisas məktəb tələbələri arasında keçirilmiş hər iki turniri birinciliklə başa vurmuşdur.

### Tarixi Qarabağ Zəfəri

2021/2022-ci tədris ilinin payız semestri Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və yenilməz Azərbaycan Silahlı Qüvvələrinin rəşadəti sayəsində 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərin birinci ildönümü ilə əlaqədar olaraq bir çox əlamətdar hadisələrlə yadda qalmışdır. Qarabağ Zəfərinin birinci ildönümü münasibətilə MDU-da silsilə konfranslar, birgə tədbirlər və mühazirələr təşkil edilmişdir. Tərəfdaş Türkiyə universitetləri ilə birlikdə tarixi Zəfərə həsr olunan 3 elmi konfrans, Qarabağ və Şərqi Zəngəzur rayonlarını təmsil edən deputatların iştirakı ilə "Vətən müharibəsi: qalibiyyətin təntənəsi və doğma Qarabağın dirçəlişi" mövzusunda konfrans, "Zəfər Günü: işğaldan azad olunmuş ərazilərin sosial-iqtisadi inkişaf tarixinin yeni başlanğıcı" mövzusunda tələbə elmi konfransı, "Taleyimizə nur saçan Müzəffər Lider" mövzusunda elmi konfrans böyük maraqla qarşılanmışdır. Bununla yanaşı, "Zəfərin mübarək, ey Vətən!" və "44 günlük Vətən müharibəsinin canlı əfsanələri" adlı ədəbi-bədii tədbirlər keçirilmişdir. MDU müəllimləri tərəfindən Mingəçevir şəhərinin altı orta məktəbində 44 günlük Vətən müharibəsi və Zəfər Gününə həsr olunan mühazirələr oxunmuşdur.

### Vətənpərvərlik tərbiyəsi

Gənclərin xalqına, vətəninə və dövlətinə bağlı layiqli vətəndaş kimi yetişdirilməsini əsas vəzifələrindən biri kimi diqqət mərkəzində saxlayan MDU-da təhsilin məzmununda vətənpərvərlik tərbiyəsinin önəminin daha da yüksəldilməsi istiqamətində mühüm addımlar atılmışdır. MDU-da Vətən müharibəsinə və əldə edilən tarixi Zəfərə həsr olunan, qəhrəman şəhidlərimizin adlarının əbədiləşdirilməsinə, cəsur əsgər və zabitlərimizin göstərdikləri şücaət və vətənpərvərlik nümunələrinin tələbə gənclərə ötürülməsinə xidmət edən, tariximizin faciəvi və şanlı səhifələrinin, milli mənəvi dəyərlərin və adət-ənənələrin öyrənilməsinə və təbliğ edilməsinə hədəflənən müxtəlif formatlı çoxsaylı tədbirlər keçirilmişdir.

Müntəzəm olaraq universitetin şəhid məzunlarının ailələri ziyarət edilmiş, Şəhidlər xiyabanında onların əziz xatirələri anılmış, qazi məzunlarla görüşlər keçirilmiş, Hərbi Qənimətlər Parkına ekskursiya təşkil edilmiş, şəhid məzunların ildönümü ilə əlaqədar anım tədbirləri keçirilmiş, qəhrəmanlarımıza həsr olunmuş tədbirlərdə tələbə və əməkdaşların fəal iştirakı təmin edilmişdir. Bununla yanaşı, MDU-nun şəhid məzunlarının tanıdılması məqsədilə "Azərbaycan müəllimi" qəzetinin "Şəhid məzunlar" rubrikasında yazılar dərc olunmuşdur. Bu fəaliyyətlərdə MDU-da yaradılan Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzi xüsusi rol oynamışdır.

### COVID-19 pandemiyasına qarşı mübarizə

COVID-19 pandemiyasının davam etdiyi bir şəraitdə MDU-da kollektiv üzvlərinin sağlamlıqlarına, xüsusi karantin rejiminin tələblərinə riayət edilməsinə, tələbə və müəllim kollektivinin müvafiq dozalar üzrə vaksinasiya prosesində fəal iştirakına, müntəzəm olaraq tibbi-profilaktik və dezinfeksiya işlərinin aparılmasına xüsusi diqqət yetirilmişdir.

**(ardı var)**

# Qabaqcıl müəllimə necə çevrilmək olar?

**Müəllim öz təlim konsepsiyasını yarada biləndə sinif “SEHİRLİ MƏKANA”, müəllim isə QABAQCIL MÜƏLLİMƏ çevrilir**



**Hikmət ƏLİZADƏ,**
*Bakı Dövlət Universitetinin professoru*

**Pedaqoji təcrübədə bu sual bütün müəllimləri düşündürür. Əlində jurnal, ilk dəfə sinfə daxil olan hər bir müəllim qabaqcıl müəllim olmaq istəyir. “Pis əsgər o əsgərdir ki, general olmaq haqqında düşünmür” aforizminin fəlsəfəsinə əsaslanaraq, hər bir müəllimin qabaqcıl müəllim olmaq istəyini pedaqoji aksioma adlandıra bilərik. Amma... müəyyən müddət keçdikdən sonra hər bir müəllim özünü qabaqcıl müəllim kimi görə bilirmi?**

## Məktəb Şekspir meyarı ilə dəyərləndiriləndə

Böyük ingilis dramaturqu Vilyam Şekspir dünyanı teatra bənzədirdi. Dünyada yaşayan insanları bu teatrın aktyorları kimi qiymətləndirir, hamının bu teatrda rol oynadığını vurğulayırdı. Məktəbi də bu meyarla qiymətləndirdikdə, bu “teatrda” ilk növbədə, müəllim və şagirdləri görürük.

Pedaqoqlar təlim - tərbiyə prosesini səciyyələndirəndə müəllim və şagird münasibətlərini önə çəkirlər. Psixoloqlar müəllim-şagird münasibətlərini “sehirli məkan” kimi dəyərləndirirlər. Gözəgörünməz tellərlə məktəbin hər bucağında mövcud olan bu sehirli məkanın özünəməxsus səhifələri var.

Müəllimin fəaliyyəti öyrədici, inkişafetdirici və tərbiyəedici vəzifələr üzərində köklənib. Bunlar olduqca çətin vəzifələrdir. Onlar müəllimdən çoxlu qabiliyyətlər tələb edir. Bu qabiliyyətlər içərisində kommunikativ və didaktik qabiliyyətlər daha önəmlidir. Kommunikativ qabiliyyətlər sehirli məkanın birinci, didaktik qabiliyyətlər isə ikinci səhifəsini təşkil edir.

## Sehirli məkanın birinci səhifəsi

Sinifdə 20-25 şagird olur. Şagirdlərin sayı sinfin kəmiyyət ölçülərini xarakterizə edir. Keyfiyyət ölçüləri ilə xarakterizə etsək, məlum olar ki, sinifdə: - əlaçı, ortabab və zəif oxuyan şagirdlər var; zəhmətkeş, tənbəl, səmimi, hiyləgər, sözə qulaq asan və asmayan....şagirdlər var; lider, onu dəstəkləyən və dəstəkləməyən şagirdlər var; hamının dostluq etmək istədiyi və istəmədiyi şagirdlər var; oğlanlar və qızlardan ibarət, heterogen (oğlan və qızlardan ibarət olan) və homogen (yalnız oğlan və ya qızlardan ibarət olan) kiçik qruplar var; müxtəlif mədəni səviyyəli ailədən olan şagirdlər var və s.

Keyfiyyət ölçüləri sinif məkanının nə qədər mürəkkəb quruluşa malik olduğunu və bu məkanda mövcud olan münasibətlər sisteminin çoxşaxəli olduğunu üzə çıxarır. Hər bir şagird bu məkana təhsil almaq üçün gəlir. Amma “şagirdlər bu məkanda yalnız təhsil alırlar” kimi düşünmək bağışlanmaz səhv olardı. Bu məkanda şagirdlər bilik və bacarıqlar əldə etməklə bahəm həm də şəxsiyyət kimi sosiallaşırlar. Görəsən, bilik və bacarıq əldə etmək, yoxsa şəxsiyyət kimi sosiallaşmaq daha önəmlidir? Bir həqiqət məlumdur, bilik və bacarıqlar əldə etmədən şəxsiyyət kimi sosiallaşmaq mümkün deyil, amma həyatda bilik və bacarıqlara malik olan, lakin sosiallaşmamış insanlara təsadüf edilir. Bu necə olur? Axı sinifdə gələcəyin kişisi, xanımı və ən əsası ölkənin vətəndaşı formalaşır. Sosiallaşmamış insanlar özlərinin gələcək “rollarını” necə ifa edə bilərlər?

Şəxsiyyətin sosiallaşması çoxlu amillərin əhatəsində baş verir. Sinif şəraitində müəllimin şagirdlərə münasibəti bu prosesin aparıcı amilinə çevrilir.

## Dünyanı sevgi xilas edəcək

Müəllimlərə ən düzgün qiyməti şagirdlər verirlər. Dünyada şagirdin müəllimi qiymətləndirmə təcrübəsi var. Şagirdlər müəllimlərdə hansı keyfiyyətlərə üstünlük verirlər sualını aydınlaşdırmaq üçün və ya cavabını tapmaq üçün və ya müəllim-şagird münasibətlərini düzgün tənzimləmək üçün psixoloqlar məktəblərdə maraqlı tədqiqatlar aparıblar. Bu tədqiqatlardan ikisinə diqqət yetirək:

*I tədqiqat:* Şagirdlərə “Müəllimin səhvi” mövzusunda inşa yazmağı təklif ediblər. Şagirdlərin yazdığı inşada müəllimlərin səhvləri konkret faktlarla göstərilmişdi. Bu səhvlərin mütləq əksəriyyəti müəllimlərin şagirdlərlə qarşılıqlı münasibətinə həsr edilmişdir.

*II tədqiqat:* Həm məktəbin buraxılış sinif şagirdlərinə, həm pedaqoji institutun I kurs tələbələrinə, həm də müəllimlərə “ideal müəllimin keyfiyyətlərini”qeyd etmək xahiş edilmişdi. Əldə edilən nəticələrdən məlum olmuşdu ki, şagirdlər və tələbələr müəllimlərin insani keyfiyyətlərinə, müəllimlər isə işgüzar və peşə keyfiyyətlərə üstünlük verirlər. Göründüyü kimi, şagirdlər və müəllimlər eyni problemi prizmanın müxtəlif bucaqlarından dəyərləndirmişlər.

Təlim-tərbiyə prosesi yaranandan müəllim-şagird münasibətləri həmişə diqqət mərkəzində olub, həmişə bu münasibətlərin humanistləşdirilməsi haqqında danışıblar, amma cəzalandırma metodundan imtina edilməyib. Bəzən cəza şiddətli olub, bəzən yüngül, amma cəzanın xeyirli olmasından çox ziyanlı olması haqqında danışılıb. Öz təcrübəmizə əsaslanaraq, deyə bilərik ki, şagirdlər cəzalanmağı xoşlamırlar. Şagirdlər cəzalananda neqativ addımlara daha çox yol verirlər.

Təbii ki, şagirdin nöqsanlı hərəkətlərinə reaksiya göstərilməlidir. Amma gəlin bir anlığa fikirləşək, şagirdlər nə vaxt nöqsanlı hərəkətlərə yol verirlər? Əlbəttə, bunun səbəbləri çoxdur, onları təsnif edəndə, məlum olur ki, aparıcı yerdə həm valideynlərin, həm də müəllimlərin şagirdə münasibəti durur. Şagird evdə də, məktəbdə də laqeydliklə rastlaşanda, danlaq içində “böyüyəndə” özünütəsdiq etmək üçün ağlasığmaz hərəkətlər düşünür. Şagirdin “çətin” tərbiyəolunana çevrilməsinin səbəbini burada axtarmaq lazımdır. Hər bir şagird özünüreallaşdırmaq istəyir, ona laqeyd münasibət bəslənəndə, özünüreallaşdırmanın yolu göstərilməyəndə öz ağlının “qüdrəti” əsasında addım atır, daha çox nöqsanlı addımları ilə yadda qalır. Şagirdi tərbiyə etmək üçün ona sevgi ilə yanaşmaq lazımdır. Şagirdlər müəllimlərdən insani keyfiyyətlər gözləyəndə bunu nəzərdə tuturlar.

*Haşiyə 1:* Dünyada yaradılmış bütün gözəlliklərin mənbəyi sevgidir. Sirri hələ məlum olmayan “Mono Liza”nı Leonardo da Vinci sevməsəydi yarada bilərdimi? Sevgi olmasaydı “Tac Mahal” yarana bilərdimi?...

*Haşiyə 2:* İnsanı formalaşdırmaq, inkişaf etdirmək, yetişdirmək... düşünməyin ki, “Mono Liza”nı, “Tac Mahal”ı (və s. və i.) yaratmaqdan asandır, əksinə, qəti əminəm ki, çətindir. Leonardo da Vinçi kimi və ya “Tac Mahal”ı tikən memar Məhməd İsa Əfəndi kimi dahini müəllim yetişdirib. Müəllim dünyaya həm gözəllik bəxş edə bilən İNSANI yetişdirə bilir, həm də insanlığa ziyanlar gətirən cinayətkarı. Böyük insanların yaranması yalnız müəllimin sevgisi ilə mümkündür.

## Sevinci böləndə sevinc böyüyür, kədəri böləndə kədər azalır

Şagird sinifdə sevincli də ola bilir, kədərli də. Müəllim onun yaşadığı hiss və həyəcanları bölməyi bacarmalıdır, bölə biləndə nələr baş vermir...

*Haşiyə:* Tələbkarlığı və ciddiliyi ilə fərqlənən riyaziyyat müəlliminin dərsi idi. Həmişə ciddi görkəmi ilə fərqlənən müəllimin bu gün sinfə girəndə həmişəkindən fərqli olaraq sifəti gülürdü. Hamı heyrətlə ona baxırdı. O, üzünü şagirdlərə tutub dedi: “Bu gün bizim sevimli şagirdimiz A-nın ad günüdür”. A sinifdə ən aşağı təlim nəticələrinə malik, heç nə ilə fərqlənməyən, şagirdlər arasında nüfuzu olmayan bir şagird idi. Müəllim onun haqqında xoş sözlər dedi, onu təbrik etdi, xoş arzularını bildirdi. Növbəti dərsdə o əvvəlki günlərlə müqayisədə fəallığı ilə diqqəti cəlb etdi. Bir kəlmə xoş söz şagirdin dərsə münasibətində dəyişiklik yaratmışdı.

Həyatda hamının çətin, kədərli, ağrılı günləri olur. Şagirdin də belə günləri az olmur. Bu halətdə o ətrafındakılardan, ilk növbədə, müəllimdən kömək gözləyir. Müəllim onu başa düşəndə, ona qayğı ilə yanaşanda, öz sevgisini ondan əsirgəməyəndə adı böyük hərflərlə yazılan MÜƏLLİMƏ çevrilir. Şagirdin yaşadığı hiss və həyacanları bilmək çətin deyil. İnsan sevincli olanda da, kədərli olanda da onun bu haləti sifətindən açıq-aydın görünür. Sadəcə olaraq bir az diqqətli olmaq tələb olunur.

*Haşiyə:* ADPU-nun müəllimi Təranə Turan Rəhimli kitablarından birinə “Dərdin pıçıltısı” adını verib. Müəllif insanın psixoloji halətini bu iki kəlmə ilə necə də müdrikcəsinə ifadə edib. Sən demə, dərd pıçıldaya bilirmiş. Psixoloqlar insanı öyrənmək üçün “bədən dili”ndən istifadə edirlər. Dərdin pıçıltısını da bədən dili ilə görmək, hiss etmək və ya başa düşmək mümkündür. Şagirdlər insani keyfiyyətlər deyəndə elə müəllimin onların sevinc və kədərinə şərik olmasını düşünürlər. Belə məqamda müəllimin bir xoş sözü onlara dünyanı bəxş edə bilir.

*Haşiyə:* Təhsil İnstitutunun direktor müavini, alim dostum Ənvər Abbasov “Azərbaycan müəllimi” qəzetinin 5 noyabr 2021-ci il tarixli nömrəsində çap etdirdiyi “Nizami Gəncəvi və söz” məqaləsində dahi şairin “Söz dünyadan gözəldir” fikrinə istinad edir. Fikirləşəndə, görürsən ki, bu gözəl dünyanı gözəlləşdirən elə sözün fəlsəfəsidir, söz olmasaydı dünya gözəl olmazdı.

Müəllimin şagirdin qəlbinə yol tapması, onun şagirdə dediyi bir kəlmə sözdən asılıdır, onun müdrikliyi bu addımından başlayır. Qabaqcıl müəllimlər, ilk növbədə, bu keyfiyyətləri ilə fərqlənirlər. Bu keyfiyyət müəllimi şagirdə sevdirir. Müəllim və şagird bir-birini sevəndə... həm müəllimin, həm də şagirdin uğurları artmağa başlayır. Uğurlar əldə olunanda... müəllim QABAQCIL MÜƏLLİMƏ çevrilməyə başlayır.

## Sehirli məkanın ikinci səhifəsi

Bu səhifədə didaktik qabiliyyətlər dominantdır, amma onlar kommunikativ qabiliyyətlərlə birləşəndə sinifdə uğurlar PEDAQOJİ MÖCÜZƏLƏRƏ çevrilir.

Didaktik qabiliyyətlər öz məzmununu təhsilin fəlsəfəsindən asılı olaraq dəyişir. Keçən əsrin ortalarında didaktik qabiliyyətlər deyəndə “öyrətmə bacarığı”, keçən əsrin sonlarında “öyrənməyi öyrətmək bacarığı”, bu gün “yaradıcı insanlar yetişdirmək bacarığı” nəzərdə tutulur. “Öyrətmə”, “öyrənməyi öyrətmə”, “yaradıcı insanlar yetişdirmə” təlimin müxtəlif təhsil fəlsəfəsinə əsaslanan fərqli yanaşmalarıdır. Bu yanaşmalar müəllimdən fərqli təlim konsepsiyasına əsaslanmağı tələb edir. Əgər müəllimin dərsi müəyyən bir konsepsiyaya əsaslanmırsa, dərsin keyfiyyəti haqqında danışmaq mümkün deyil.

Konsepsiya (latınca conceptio-anlama sistemi) ədəbiyyatda müxtəlif məzmunda (nəyinsə izahında rəhbər ideya; vahid sistem təşkil edən bir şeyə baxışlar kompleksi; hər hansı bir hadisəni başa düşmək, şərh etmək üçün müəyyən yol, əsas nöqteyi-nəzər və s.) açıqlansa da, mahiyyəti etibarı ilə fəaliyyət strategiyasını müəyyən edir. Məlumdur ki, strategiya olmadan taktikanı ayırd etmək mümkün deyil. Müəllim də fəaliyyətə başlayanda öz strategiyasına (oxu: konsepsiyasına) əsaslanaraq, taktika (oxu: metodika və texnologiya) müəyyənləşdirir. Qabaqcıl müəllimlərin fəaliyyətlərindəki uğurların sirləri onların konsepsiyasının məzmunundadır.

*Haşiyə:* Bütün dövrlərdə həm adi müəllimə, həm də qabaqcıl müəllimə təsadüf edilib. Qabaqcıl müəllimlər öz pedaqoji fəaliyyətlərində rəhbər tutduqları konsepsiyanı tətbiq etməyin yolunu tapmaları ilə fərqlənmişlər.

## Azad Mirzəcanzadənin pedaqoji yanaşması

Müstəqillik əldə edildikdən sonra akademik Azad Mirzəcanzadə 2 nömrəli tam orta məktəbin bazasında yaradılmış texniki-humanitar liseydə şagirdlərə yaradıcılığın sirlərini öyrətməyə başladı. O, özünün təhsil konsepsiyası əsasında işləyib hazırladığı qeyri-adi kursu - “riyazi - fiziki - kimyəvi - tənqidi təfəkkür” kursunu yeni metodla tədris edirdi. Kursun tədrisi şagirdlərə təkcə bilik aşılamırdı, onlarda, ilk növbədə, nəzəri (riyazi, fiziki, kimyəvi) təfəkkürün və insan ağlının qiymətli keyfiyyəti - tənqidi təfəkkürün formalaşmasına istiqamətlənmişdi.

Akademik Azad Mirzəcanzadə bununla yanaşı həftədə bir dəfə müəllimlərlə də məşğələlər aparırdı. Bu yolla müəllimlərdə təlim konsepsiyası formalaşdırmağa çalışırdı. O bilirdi ki, hər bir müəllimin təlim konsepsiyası olmadan uğur qazanması mümkün deyil.

*Haşiyə:* Müəllimin rəhbər tutduğu konsepsiya onun təlim yoluna işıq salır, o bu konsepsiyanın reallaşması üçün öz metodikasını axtarıb tapır.

## Azərbaycan məktəblərində qabaqcıl müəllimlərin pedaqoji təcrübəsi

*Haşiyə:* Azərbaycan məktəbi qabaqcıl müəllimlərin pedaqoji təcrübəsinin uğurları ilə zəngindir. Zamandan asılı olaraq, təlim qarşısına qoyulan tələblər dəyişir. Təlim konsepsiyaları və metodikalar da yenilənir. Amma yeni köhnənin inkişafı üzərində yaranır. Deməli, mövcud olmuş təcrübələri öyrənməliyik ki, yenini uğurla yarada bilək. Azərbaycanın qabaqcıl müəllimlərinin bəzilərinin təcrübəsinə diqqət edək.

*SSRİ xalq müəllimi Zahid Şöyübov* Yevlax rayonunun Xaldan qəsəbəsində kompleks məktəbə (məktəbin nəzdində uşaq bağçası, tədris istehsalat kombinatı və musiqi məktəbi olub) rəhbərlik edərkən, özünəməxsus konsepsiyaya əsaslanıb. Şagirdlərin ictimai-faydalı fəaliyyətə cəlb olunması bu konsepsiyanın ana xəttini təşkil edib. Dərsdən sonra şagirdlər növbə ilə məktəbin nəzdində fəaliyyət göstərən tədris-istehsalat kombinatında işləyiblər. Həmin işin nəticəsində əldə olunan gəlir məktəbin maddi-texniki bazasının möhkəmlənməsinə və şagirdlərin tətillər zamanı istirahətinin daha məzmunlu keçməsinə xərclənib. Məktəbin şagirdləri yüksək təlim nəticələri ilə fərqləniblər. Lakin maraqlı məqam onda idi ki, tədris-istehsalat kombinatında şagirdlər Yevlax rayonu üçün xarakterik olan peşə fəaliyyətlərinə cəlb olunurdular. Fikrimizcə, bu konsepsiya bu gün region məktəbləri üçün pedaqoji maraq kəsb etməlidir.

***

*Əməkdar müəllim Asif Cahangirov* Sumqayıt şəhərində müəllim işləyərkən təfəkkürün inkişafı konsepsiyasına üstünlük vermişdi. Onun fikrincə, bu konsepsiyanın tətbiqi üçün təlim prosesində şagirdlərdə müstəqil düşünmə, təhliletmə, ümumiləşdirmə, aparıcı ideyanı müəyyən etmə və bu kimi digər bacarıq və qabiliyyətləri formalaşdırmaq zəruri idi. Asif Cahangirov bu məqsədə nail olmaq üçün dərsin gedişində problem situasiya yaradır, biliyin müstəqil olaraq şagirdlər tərəfindən “kəşf” edilməsinə calışır, onları problemin həllinin müxtəlif yolları ilə üz-üzə qoyur, düzgün cavabı tapanda şagirdə “niyə” sualına cavab verməyi tələb edir, bu yolla şagirdin fikrinin dolğun olub-olmamasını yoxlayır, digər şagirdlərin bu mülahizələrə fikirlərini öyrənirdi. Bu, Azərbaycan məktəblərində təfəkkür dərslərinin başlanğıcı idi.

***

*Professor Mustafa Salahov* da təfəkkür dərslərinə üstünlük verirdi. Lakin o məsələyə başqa istiqamətdən yanaşırdı, onu bir məsələ düşündürürdü. Elmlərin inteqrasiyası şəraitində təbiətşünaslıq fənlərinin, ilk növbədə, kimyanın tədrisi prosesində şagirdlərdə təfəkkürü hansı yollarla inkişaf etdirmək olar? Professor Mustafa Salahov bu suala belə cavab verirdi: ümumtəhsil məktəblərində təbiətşünaslıq fənlərinin dünyanın vəhdəti baxımından öyrənilməsi yolu ilə. Bu, Mustafa Salahovun təlim konsepsiyasının özəyini təşkil edirdi. Şagirdlərdə dinamik fəza təfəkkürünün inkişafı həmin konsepsiyanın ana xətti idi. Dinamik fəza təfəkkürü inkişaf edəndə təbiətşünaslıq fənlərini şagirdlər qarşılıqlı əlaqədə, sistemli, proses və hadisələrin daxili əlaqələrini taparaq mənimsəyirlər.

***

*Qabaqcıl müəllim Fatma Bünyadova* XX yüzilliyin görkəmli psixoloqu Jan Piajenin genetik epistomologiyasını məktəb təcrübəsinə tətbiq etməyə başladı. O, özünün “İdrak məktəbi”ndə Jan Piajenin genetik psixologiyasının uğurları axarında şagirdlərin ağlını inkişaf etdirirdi. Jan Piajenin elmi məktəbi dünya psixologiyasının incilərindən hesab edilir. Onun nəzəri konsepsiyasının mərkəzində psixologiya və məntiqin nisbəti probleminin həlli xüsusi yer tutur. Jan Piajenin qənaətinə görə, təfəkkür prosesləri mahiyyətcə məntiqə arxalanır. Fatma Bünyadova genetik epistomologiyanın başlıca postulatlarına əsaslanaraq uşaqlarda təfəkkürün inkişafını məntiqi ölçülərlə araşdırırdı.

## Son söz əvəzi

Qabaqcıl müəllimlərin təcrübəsi özünəməxsus təlim konsepsiyaları ilə fərqlənir, onlar hətta eyni məsələni müxtəlif rakurslardan həll edirlər. Müəllim özünəməxsus təlim konsepsiyasını yarada biləndə onun dərsində rəngarənglik əmələ gəlir. Belə olduqda dərs həm müəllimin özü, həm də şagird üçün maraqlı olur. Bu konsepsiyanı yarada bilməyin iki önəmli şərti var: müəllimin şagirdə olan sevgisi və bilik, bacarıq, qabiliyyətləri. Bu iki şərt odənəndə müəllim öz təlim konsepsiyasını yarada bilir. Yarada biləndə sinif “SEHİRLİ MƏKANA”, müəllim isə QABAQCIL MÜƏLLİMƏ çevrilir.

# Şagirdlər Ədəbiyyat İnstitutu ilə tanış olublar



Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda Bakı şəhəri, Xəzər rayonu 262 nömrəli məktəbin kiçik akademiyasının 8-11-ci sinif şagirdləri ilə görüş keçirilib.

Şagirdlər əvvəlcə institutun elmi tədqiqat şöbələrini gəzərək aparılan elmi tədqiqatlar, çap edilmiş kitablarla yaxından tanış olublar.

Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli elmin müasir insan cəmiyyətində əhəmiyyəti, Azərbaycanda elmin təşkilatlanmasında Akademiyanın yerinə yetirdiyi əhəmiyyətli funksiya, institutun ədəbiyyatşünaslıq elmi sahəsindəki fəaliyyəti barədə məlumat verib.

Məktəbin elmi tədqiqata marağı olan, kiçik akademiyada təmsil olunan şagirdləri müxtəlif mövzularda təqdimatlarla çıxış ediblər. Məktəb şagirdlərindən Aydan Əliyeva "Günəş sistemi", Cansu Heydərova "Lütfi-zadə və qeyri-səlis məntiq nəzəriyyəsi", Bəyimxanım Hacıyeva "Alternativ enerji mənbələri", Zeynəb Əliyeva "Humanoid robotlar" mövzularında hazırladıqları təqdimatları nümayiş etdiriblər.

Görüşdə institutun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı, Gənc Alimlər və Mütəxəssislər Şurasının sədr müavini Orxan İsayev və 262 nömrəli məktəbin müəllimi, kiçik akademiyanın rəhbəri Aidə Quliyeva da iştirak ediblər.

Sonda şagirdlərə Ədəbiyyat İnstitutuna aid nəşrlər hədiyyə edilib.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 1025 **Sifariş** 368

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Bakı Dövlət Universiteti** tərəfindən 2010-cu ildə Zeynallı Çinarə Məmməd qızına verilmiş B-195822 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Universiteti** tərəfindən 2019-cu ildə Sadıqov Cavid Hikmət oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 14 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş İsayev Emin Vaqif oğluna verilmiş A-137198 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2008-ci ildə Novruzova Turanə Rüfət qızına verilmiş B-119954 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 88 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Tataşadze Allahverdi Rəhim oğluna verilmiş E-068758 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 11 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Nurəddinov Nurəli İlham oğluna verilmiş B-716984 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Ceyranbatan qəsəbə 1 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Məmmədyarov İsa Adil oğluna verilmiş AN-419753 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Saatlı kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Əliyev Elçin İmran oğluna verilmiş A-638301 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2019-cu ildə Eynalov Kərim Nəcəf oğluna verilmiş C-033593 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Cardam kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Qəhrəmanov Qəhrəman Muğdət oğluna verilmiş A-233467 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Sarov kənd tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Mustafayeva Həcər Kəmaləddin qızına verilmiş A-207552 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdam Dövlət Sosial-İqtisadi Kolleci** tərəfindən 2016-cı ildə Mustafayeva Həcər Kəmaləddin qızına verilmiş AA-079042 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2003-cü ildə Rəcəbov Pərviz Yusif oğluna verilmiş A-148350 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Agentliyi** tərəfindən 2008-ci ildə Rəcəbov Pərviz Yusif oğluna verilmiş 0728\18 nömrəli ixtisaslaşmış matros diplomu, Sİ-644-18, SH-0455-18, SP-106-18, SO-1320-18, SL-1297-18 nömrəli sertifikatlar və 012193 nömrəli dənizçinin qeyd kitabçası itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 1990-cı ildə Hüseynov Şirzad Əsəd oğluna verilmiş HB-015822 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Masazır kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Sadıqova Fəridə İsrafil qızına verilmiş A-806205 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 117 nömrəli tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Əsgərova Aygül Ələkbər qızına verilmiş B-119767 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**"Elm və Təhsil" Mərkəzi Təfəkkür Universiteti** tərəfindən 2014-cü ildə İsmayılov Seymur Ərşad oğluna verilmiş A-050684 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 269 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əsgərova Nurlanə Güləhməd qızına verilmiş B-019800 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Mehdiabad qəsəbə 3 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Əhədov Əhməd Əhəd oğluna 2021-ci ildə verilmiş C-577592 nömrəli ümumi orta təhsil haqqında dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1978-ci ildə Əliyev Əvəzağa Tələt oğluna verilmiş B-I-004243 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Məktəbəqədər Pedaqoji Məktəbi** (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec) tərəfindən 1993-cü ildə Əliyeva (Novruzova) Səidə Aslan qızına verilmiş PT-I-103123 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Ü.Hacıbəyov adına Qabaqçöl qəsəbə tam orta məktəbi 1992-ci ildə bitirmiş Haxova Nəzakət Məhəmməd qızına verilmiş 173525 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Yüngül Sənaye Texnikumu** tərəfindən 1990-cı ildə Zeynalabdinova Nəsibə Zeynalabdin qızına verilmiş HT-I-556173 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Neft Energetika Kolleci** tərəfindən 2017-ci ildə Məmmədov Nail Natiq oğluna verilmiş AA-093495 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** B.Rüstəmov adına Dəllər-Cəyir tam orta məktəbi 1998-ci ildə bitirmiş Həsənova Fərqanə Sayat qızına verilmiş A-260147 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Çinarlı qəsəbə tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Məmmədov Elnur Fərhad oğluna verilmiş C-440136 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** F.Ələkbərov adına Xanallar kənd tam orta məktəbi 2021-ci ildə bitirmiş Əhmədova Aygün Güləhməd qızına verilmiş E-426305 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Zəyəm qəsəbə tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Orucova (Mustafayeva) Nərgiz Elman qızına verilmiş A-381609 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri Universiteti** tərəfindən 1997-ci ildə Nəzərov Vüqar Mehralı oğluna verilmiş TB-I-095074 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** (indiki 1 nömrəli Tibb Kolleci) tərəfindən 2008-ci ildə Qasımova Günel Maarif qızına verilmiş BB-II-069144 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**H.Mahmudbəyov adına 2 nömrəli Texniki Humanitar Liseyi** 2013-cü ildə bitirmiş Hüseynov Savalan Məhərrəm oğluna verilmiş A-186896 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Çəmənli kənd tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Əmirova Türkan Rasim qızına verilmiş A-534663 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 6 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş İsayev Vaqif Elmir oğluna verilmiş E-338702 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 7 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Əhmədova Pərvanə İbrahim qızına verilmiş B-078863 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar şəhər** 5 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Babayeva Aytən Telman qızına verilmiş B-506898 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar şəhər** 2 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Mehdiyev Azər Ağasəf oğluna verilmiş 182387 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Boyat kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Əliyeva Xatirə Ənvər qızına verilmiş B-210526 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Alpout kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Qarayev Heydər Natiq oğluna verilmiş A-396562 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi (indiki 1 nömrəli Tibb Kolleci)** tərəfindən 1998-ci ildə Feyzullayeva Samirə Qüdrət qızına verilmiş AB-II-029552 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**DİN-nin Polis Akademiyası** tərəfindən 2005-ci ildə Fətəliyev Mübariz Bəlakir oğluna verilmiş BB-I-000504 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Novruzova Aynurə Kərəm qızına verilmiş A-156652 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər Akademik Zərifə Əliyeva adına məktəb-liseyi** 2017-ci ildə bitirmiş Bahadurlu İlham Təvəkgül oğluna verilmiş E-042537 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2021-ci ildə Həsənzadə Aynur İlhamiz qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 44 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Rzayeva Nigar Akif qızına verilmiş A-194205 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Liseyi** 2014-cü ildə bitirmiş Məmmədov Orxan Əliövsət oğluna verilmiş A-290699 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Qaradağ rayon Qobustan qəsəbəsi 321 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Süleymanlı (Əhmədova) Səbinə Asif qızına verilmiş B-679624 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Paşabəyli kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Heybətova Fərqanə Atamoğlan qızına verilmiş B-320339 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2014-cü ildə Bədəlova Aytac Tahir qızına verilmiş AT-001249 nömrəli fərqlənmə diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Cibir kənd tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Kübərova (Vələdova) İrina Nizaməddin qızına verilmiş A-076134 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 6 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Mədətova (Səfərbəyova) İradə İlham qızına verilmiş B-417288 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 12 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Əsədova Sübhiyyə Səfər qızına verilmiş A-697412 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şağlaküçə kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Həşimov Elnur İlqar oğluna verilmiş B-273743 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şağlaküçə kənd tam orta məktəbi 2021-ci ildə bitirmiş Şükürzadə Fatimə Ceyhun qızına verilmiş E-396632 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** R.Məmmədov adına Alekseyevka kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Məmmədov Aruz Tofiq oğluna verilmiş B-310655 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Məmmədov Tofiq Rəşad oğluna verilmiş E-141007 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 7 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Həmidova Aysun Valeh qızına verilmiş E-068445 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Zarağan kənd 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş İslamova Nərgiz İlqar qızına verilmiş B-401399 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2020-ci ildə Vəliyeva Ləman Nadir qızına verilmiş C-085291 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı şəhər 91 nömrəli tam orta məktəbin pedaqoji kollektivi məktəbin direktoru Svetlana Zülfüqarovaya əzizi

**KAMİL MƏCİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Tarixi faktlar: dahi Nizaminin qəhrəmanına çevrilən Fərhad

**Şərq ədəbiyyatında qəzəl deyəndə M.Füzuli, mənzum roman deyəndə N.Gəncəvi yada düşür. Əvvəla onu demək lazımdır ki, klassik ədəbiyyatımız müxtəlif dövrlərdə imperiyaların məngənəsindən keçərək günlərimizə gəlib çatıb. Həmin dövrlərdə F.Köçərli, M.A.Dadaşzadə, H.Araslı, M.Ç.Cəfərov, M.C.Paşayev kimi tədqiqatçıların fədakarlığı və uzaqgörənliyi olmasa idi, yəqin ki, Azərbaycan xalqı çox şey itirərdi. Nəsimini ateist, Füzulini rüşvətə qarşı çıxan vətəndaş şair, Nizamini ilk əməkçi insan surəti yaradan şair adlandırmaqla onları dövrün ideoloji burulğanından çıxarıb bizə yenidən bəxş ediblər. Onlar yaxşı başa düşürdülər ki, bu dahiləri itirməkdənsə, yaxud farsa, ərəbə verməkdənsə, onları utopik sosialist, yaxud, Allaha və dinə qarşı çıxan vətəndaş şair kimi qələmə vermək daha yaxşıdır. Çünki, vaxt gələcək hər şey öz yerini tapacaq. Doğurdan da səhv etmədilər. Bəzən belə fikir səslənməkdədir ki, klassik Azərbaycan ədəbiyyatı yalnız seçilmişlər üçündür. Hər kəs onu başa düşüb mənimsəyə bilməz. Orta əsrlərdə mövcud olan elmlərə vaqif olmaq lazımdır. Yoxsa, bu, mümkün deyil. Mənə elə gəlir ki, bu, çox mühafizəkarlıq olardı.**



**Dilavər QURBANOV,**
*BDU-nun Qazax filialının müəllimi*

Təki hamı oxusun. Əlbəttə ki, hər kəs, öz qabiliyyətinə görə mənimsəyəcək və ən nəhayət, Nizami kimi söz sərrafına əl uzatmaq istəyənlər də başa düşməlidir ki, bu böyük düha sahibi özünü Nizami Gəncəvi adlandırmaqla hər şeyi deyib. Hamını təəcübləndirmək və ucuz "elmi kəşf" etmək üçün dahi Nizami haqda nəsə demək ən azı günahdır. Nizami Gəncəvinin 1180-ci ildə tamamladığı "Xosrov və Şirin" poemasında insan eşqinin qüdrət və əzəməti göstərilmişdir. Aydındır ki, əsərin təfsiri, məzmunu, Nizami fikirlərinin izahı həddən artıq ehtiyat tələb edir.

Mənim məqsədim diqqəti başqa bir istiqamətə yönəltməkdir. Əvvəla məlumdur ki, Azərbaycan xalqı qədər tarixi, mədəniyyəti, ədəbiyyatı təcavüzə məruz qalan xalq çətin tapılar. O.Süleymanov demişkən, tarix deyil, onun yozumu təəccüb doğurur. Zəngin mədəniyyət, dövlətlər yaradan xalqımızın əlindən çox şeyləri alsalar da, ona sahib ola bilməyiblər. Söhbət Midiya dövlətindən gedir. Midiyalılar və Midiya tarixini müxtəlif tarixçilərdən oxuyarkən ortaya daha çox suallar çıxır. Məsələn, Azərbaycan ədəbiyyatı tarixində aşağıdakı cümlələri oxuyuruq: "Qətranların, Nizamilərin istifadə etdikləri xalq yaradıcılığında əsrlər boyu yaşayan bu əzəmətli surət (Fərhad) nəyin əsasında yaranmışdır...

İran hökmranlığından qurtarmaq üçün üsyan qaldırmış 9 böyük ölkənin üsyan başçıları, o cümlədən Fravarts-Fraort-Fərhad haqqında Bisütunda böyük bir dastan yazılmış, boynu zəncirli əsir vəziyyətində İran Şahının qarşısında dayanmış bir şəkil də həkk edilmişdi" (səh. 34 A.Ə.T-1960). Əslində, mən Böyük Nizami və onun qəhrəmanı Fərhadı daha yaxşı öyrənmək istərdim. Bu səbəbdən də kompleks şəkildə aşağıda adları və əsərlərində istinad etdiyim Azərbaycan tarixçilərinin köməyinə söykənərək Midiya tarixinə bir nəzər salmaq istərdim.

E.ə VIII əsrin sonunda Midiyada Deyok tərəfindən vahid dövlət yaradılmasına təşəbbüs edilir və o Ekbatan şəhərini saldırır. B.e.ə 672-ci ildə Deyokun oğlu Fraorta (mixi yazılarda o, Kaştariti adlanır) Midiyanın Assuriyaya qarşı mübarizəsini uğurla başa çatdırdı. 28 ildən sonra Midiyada iskit ağalığına Kiaksar son qoydu. Tarixçi alim Q.Qeybullayev yazır ki, e.ə 612-ci ildə çar Kiaksarın vaxtında Maday dövləti türk mənşəli skiflərin köməyi ilə Assuriya təcavüzkarlığına son qoymuş, ərazisini özünə qatmış və bu münasibətlə tarixdə ilk dəfə ikibaşlı qartal emblemini qəbul etmişdir. Məlumdur ki, "aslanlar yuva"sının təcavüzkar siyasəti Babilistan dövləti ilə Midiyanı ittifaq yaratmağa məcbur etmişdir. Müttəfiqlər, əks tərəfdə Manna və Assuriya ilə Qablini şəhəri yanında qarşılaşırlar. Assuriya məğlub olur. E.ə 612-ci ildə "aslanlar yuvası" tutulur, e.ə 605-ci ildə isə Assur dövləti süqut edir.

Kiaksar bu ittifaqı möhkəmləndirmək üçün hətta öz qızını Babil padşahının oğluna ərə verir. Tarixçi alim Y.Yusifov yazır ki, Midiyanın müttəfiqi (indi həm də qohumu) Babil hökümdarı Nabupalasar e.ə 605-ci ildə vəfat edir. Hakimiyyətə oğlu II Novuxodonosor keçir. Bundan sonra o, qohumluq münasibətlərinə sadiq qalaraq Midiya və onun tərkibinə daxil olan əraziyə müdaxilə etmirdi. Babilistan və Midiya Ön Asiyanın ən qüdrətli dövlətlərinə çevrilirlər. E.ə VI əsrdə Novuxodonosor Midiya şahzadəsi, sevimli arvadı İsti Babildə darıxan Amitida üçün dünyada tayı-bərabəri olmayan bir bağ saldırmaq qərarına gəlir. Çünki Amitida vətəninin coğrafi şəraiti üçün darıxırmış, "Asma bağlar" ona vətəninin dağlarını və təbiətini xatırlatmalı imiş. Böyük bir məhəbbətin təzahürü olan bu abidə sonradan dünyanın yeddi möcüzəsindən biri adlandırıldı. Kiaksarın vəfatından sonra hakimiyyətə onun oğlu Astiaq (e.ə 585-550) gəlir. Astiaq mərkəzi hakimiyyəti gücləndirmək üçün zadəganların hüquqlarını məhdudlaşdırır. Yuxarıda göstərilən mənbəyə görə Midiyanın axırıncı çarı Astiaq türklərin tarixində qara səhifə yazmış şəxslərdəndir. Onun öz sərkərdəsi Harpaqa qarşı ədalətsiz münasibəti (oğlunu öldürüb ətini atasına yedizdirməsi) Harpaqın Astiaqa qarşı vuruşan fars ordusunun tərəfinə keçməsinə səbəb olur. Herodotun "rəşadətli kişilər" adlandırdığı midiyalılar arasında bu anlaşılmazlığın və xəyanətin səbəbi nə imiş?

Rəvayətə görə Astiaq yuxuda görür ki, qızı Mandananın ətrafında əmələ gələn su bütün Asiyanı basır. Tədbirçilərin yozumuna görə Mandanadan olacaq oğlan Astiaqı hakimiyyətdən salacaq. Hakimiyyətinin əldən çıxacağından qorxan Astiaq qızını Kambis adlı sakit təbiətli bir iranlıya ərə verir ki, ondan olacaq uşaq heç cür şah ola bilməsin, yəni hakimiyyətə gələ bilməsin. Çünki, o dövrün qanunlarına görə, şah olmaq üçün həm təmiz türk qanına sahib olmaq, həm də əsilzadə olmaq lazım idi. Astiaq bilərəkdən qızını farsa verməklə gələcək nəvəsini varislikdən məhrum edir. Astiaq ikinci yuxudan sonra nəvəsini çox etibar etdiyi Harpaq adlı qohumuna verir ki, uşağı öldürüb, təhlükəni sovuşdursun. Lakin sərkərdə Harpaqın uşağı nəinki öldürmədiyi və onu böyüdüb mənsəb sahibi etməsi Astiaqı amansız bir adddım atmağa məcbur edir. İllər keçir. Harpaq Astiaqa qarşı kinini gizlədərək intiqam üçün fürsət gözləyir. Midiya sarayında zadəganlar və şah arasında ziddiyyətlər və sarayda farsmeylli qüvvələrin fəaliyyəti Harpaqa gözəl fürsət verir. Harpaq Midiya ordusunun baş komandanı kimi e.ə 550-ci ildə baş verən həlledici döyüşdə fürsəti əldən vermir. Midiya dövləti süqut edir. Əhəməni dövləti yaranır. Farslar Midiyanı özlərinə tabe edərək, onların mədəniyyətini və dövlət idarə sistemini qəbul edirlər. Hətta əhəmən sülaləsindən olan Kir özünü Midiya şahı elan edir. Sonralar Kir layiqli cəzasını alır. Məlumdur ki, e.ə 530-cu ildə Araz çayının sahilində baş verən döyüşdə Tomris tərəfindən məğlub edilib öldürülür. Farsların hakimiyyəti altına düşmüş "rəşadətli kişilər" bununla razılaşmaq istəmirlər. Tarixçi alim İ.Əliyev yazır ki, Qaumatın çevrilişi farsların hakimiyyətinə qarşı Mada narazılığının təzahürü idi. Maqın həlak olmasından sonra farslardan başqa hamı onun taleyi üçün təəssüflənirdi. Qaumatın ölümündən sonra Fravartişin başçılığı ilə Madada bir neçə ay davam etmiş üsyan da eyni səbəbdən baş verir. Azərbaycan ədəbiyyatında Fraorta üsyanı və onun rəhbəri əfsanələşmişdir. İran şahı Daranın hakimiyyəti illərində üsyan başçısı olan Fərhad əsrlər boyu yaşamış və dahi Nizaminin qəhrəmanına çevrilmşdir.

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük gərgin döyüşlərlə işğal altında olan torpaqlarımız azad olundu. Məcburi koçkün düşmüş vətəndaşlarımız tezliklə öz doğma torpaqlarına qayıdacaqlar. Lakin düşmən azad olunmuş ərazilərə minlərlə mina , çoxlu sayda partlamamış hərbi sursatlar basdırmış ki, bu da əhali üçün ciddi təhlükə yaradır.**

# Mina təhlükəsizliyi

## Məktəblərdə mövzu ilə bağlı "açıq dərs"lər



Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikasının təhsil naziri "Təhsil müəssisələrinin müəllim-şagird (tələbə) heyətinin partalayış təhlükəsinə qarşı maarifləndirilməsi barədə metodiki tövsiyələr"in təsdiq edilməsi haqqında müvafiq əmr imzalayıb.

Bu əmrə əsasən Cəbrayıl rayonu Dirili Qurbani adına Soltanlı kənd tam orta məktəbində tarix müəllimi Şəbnəm Hatəmzadə VI sinifdə Həyat bilgisi fənnindən çağrışaqədərki hazırlıq rəhbəri Xəyal Hüsiyev isə X sinifdə "Mina təhlükəsizliyi" mövzusunda "açıq dərs" keçirib. Dərslərdə Təhsil Nazirliyinin məsul əməkdaşları Rövşən Ağayev, Əhliyət Adıgözəlov və Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) mütəxəssisi Zamiq Aslan, II Qarabağ müharibəsi qazisi Həsən Müzəfferli iştirak ediblər.

VI sinifdə keçirilən "açıq dərs"də Ş.Hatəmzadə şagirdlərə minanın təhlükəli tərəfləri və minalı ərazilərdə necə diqqətli olmaları, mina ilə qarşılaşdıqda necə rəftar etməli olduqları barədə praktik şəkildə məlumat verib. Həmçinin şagirdlərə mina təhlükəsizliyi haqqında video çarxlar nümayiş etdirilib və maarifləndirici söhbətlər aparılıb. Müəllim VI sinif şagirdləri ilə mina təhlükəsizliyi ilə əlaqədar olaraq rollu oyunlar təşkil edib. Mövzunun möhkəmləndirilməsi məqsədi ilə müəllim iş vərəqləri paylayıb və nəticələr qiymətləndirilib.

X sinifdə keçirilən "açıq dərs"də çağrışaqədərki hazırlıq rəhbəri X.Hüsiyev şagirdlərə mina və partlamamış hərbi sursatların forması, rəngi, ölçüsü, nədən hazırlanmasından danışıb, iştirakçılarda onları tanımaq bacarıqları formalaşdırılıb, mina və partlamamış hərbi sursatların ola biləcəyi yerlər, rəsmi və qeyri-rəsmi mina işarələri barədə məlumat verilib, minalanmış əraziyə daxil olanda təhlükəsiz hərəkət etmək qaydaları öyrədilib, şagirdlərə minalarla oynamamaq, çubuqla onlara toxunmamaq, mina və partlamamış hərbi sursatların partlayaraq onları öldürə və ya şikəst edə bilməsi izah olunub.

Tədbirdə Minatəmizləmə Agentliyinin mütəxəssisi ANAMA-nın fəaliyyətindən danışıb, məktəblilərə mina təhlükəsindən qorunmaq üçün maarifləndiriçi bukletlər və əyani vəsaitlər təqdim edib.

Dərsdə iştirak edən II Qarabağ müharibəsi iştirakçısı H.Müzəfferli öz xatirələrini danışaraq minaların tanınması üsulları, partlayıcı vasitələrdən qorunmaq üçün hansı addımların atılması barədə şagirdləri məlumatlandırıb.

***

Ağdam rayon 32 nömrəli tam orta məktəbin şagirdləri arasında partlayıcı sursatların riskləri barədə məlumatlığın artırılması məqsədi ilə təlim keçirilib. Tədbirdə Təhsil Nazirliyinin ümumi təhsilinin təşkili və idarə olunması şöbəsinin baş məsləhətçisi Əhliyət Adıgözəlov, ANAMA-nın mütəxəssisi Zamiq Aslan, Ağdam Rayon Təhsil Şöbəsinin məsləhətçisi Sevinc Bayramova, metodisti Səadət Dadaşova və İkinci Qarabağ müharibəsinin qazisi Elnur Abbasov iştirak ediblər.



Məktəbin hərbi rəhbəri Elgiz Əliyev gənclərin çağrışaqədərki hazırlığı fənnindən Xb sinfində "Mühəndis maneələri" mövzusunda nümunəvi dərs keçib. Dərsdə partlamamış sursatların insan həyatı üçün necə təhlükəli olduğu, onların aşkar edilməsi və bu zaman necə hərəkəti etməli olduqları və s. haqqında geniş məlumat verilib. Sonra ANAMA-nın mütəxəssisi mövzu haqqında şagirdləri maarifləndirib, onların suallarını, cavablandırıb. Vətən müharibəsinin qazisi Elnur Abbasov şagirdlərə döyüşlər zamanı minalardan necə qorunduqlarını və döyüş xatirələrini danışıb.

***

Bakı şəhərində fəaliyyət göstərən Laçın 29 nömrəli tam orta məktəbdə müəllim-şagird heyətinin partlayış təhlükəsinə qarşı maarifləndirilməsi məqsədi ilə çağrışaqədərki hazırlıq rəhbəri Yaşar Cəfərov tərəfindən X sinif şagirdləri üçün "açıq dərs" təşkil edilib. ANAMA-nın mütəxəssisi mina təhlükəsizliyi ilə bağlı şagirdləri məlumatlandırıb.

Tədbirdə mövzu ilə bağlı Təhsil Nazirliyinin nümayəndəsi Əhliyət Adıgözəlov, Qarabağ qaziləri Saleh Şirinov, Muğan İsayev, Sahib Hüseynov çıxış ediblər.